12 compounds from acylhydrazides schiff bases of indol classes and 7 compounds from sulphones classes were screened for β-glucuronidase and were determined IC50 (concentration of compound which can inhibit 50 % activity of enzyme). 5 compounds of 12 had not activity, 6 had good activity with compare standard inhibitor (D-saccharic acid 1,4-lacton 48.4± 1.25μl) and 1 has weak activity, while 1 compound is very potent inhibitor from sulphones classes. Comparison between compounds belonging two classes shows if there are halogens in the compounds then this compounds is good inhibitor for β-glucuronidase and level of inhibition increases with this law F→ Cl →Br.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 20-27 (2009)

Abşeron Şəraitində Becərilən Texniki Üzüm Sortlarının Fenologiyası, Böyümə və İnkişafetmə Xüsusiyyətləri

M.R. Qurbanov[1], X.T. Abasova[2]
[1]*AMEA Mərkəzi Nəbatat bağı*
[2]*AzET Üzümçülük və Şərabçılıq İnstitutu*

Məqalədə Abşeron yarımadasında əkilib-becərilən texniki üzüm sortlarının fenoloji fazalarının gedişatı, tumurcuqlarının açılma və zoğverməsi, meyvələrin əmələ gəlməsi və yetişməsi, həmçinin onların böyümə və inkişafetmə xüsusiyyətlərinin tədqiqindən alınan nəticələr verilmişdir.

Açar sözlər: *Abşeron, üzüm, sort, fenologiya, böyümə, inkişafetmə, zoğ, çiçək, meyvə*

GİRİŞ

Üzümkimilər (*Vitaceae* Juss.) fəsiləsindən olan üzüm (*Vitis* L.) Yerin şimal yarımkürəsinin mülayim və subtropik bölgələrində yayılan 70-ə yaxın növü əhatə edir. Onların 40 növü Şərqi Asiyada, 2 növü Orta Asiyada və Avropada, 28 növü isə Şimali Amerikada yayılmışdır (Шулгина, 1958). Keçmiş SSRİ məkanında üzümün 3 növünə yabanı, 25 növünə isə mədəni halda (kulturada) rast gəlininr (Качалов, 1970). Qafqazda, o cümlədən Azərbycan florasında üzümün 3 növünə (*V.labrusca* L., *V.vinifera* L. *və V.sylvestris* C.C. Gmel.) təsadüf edilir ki, onlardan 2-si mədəni haldadır (Прилипко, 1955). Azərbaycanda yabanı halda bitən *V.sylvestris* C.C. Gmel. - meşə üzümünün qara, bənövşəyi və qırmızımtıl giləli formaları ilə yanaşı, son zamanlar daha 2 yeni ağ giləli formaları da aşkarlanmış və *Vitis sylvestris var. Zangezur Mail və Vitis sylvestris var. Alpan Mail* kimi adlandırılmışdır (Аманов, 2006). 1946-1970-ci illərdə keçmiş SSRİ-nin Ampeloqrafiyasında üzümün 2801 sort və klonu qeydə alınmışdır (Кискин, 1974) ki, onların 300-ə qədəri sənaye miqyasında əkilib-becərilən sortlardır (Качалов, 1970). Cənubi Qafqaz və Orta Asiya regionlarında mədəni üzümün (*V.vinifera* L.) 500-ə qədər yerli sortları vardır (Шулгина, 1958; Şərifov, 1988). Azərbaycanda 600-ə qədər üzüm sortu vardır ki, onlardan 300-ə qədəri yerli üzüm sortlarına aiddir (Amanov və b., 2006). Abşeronun yerli texniki üzüm sortlarının sayı 15-ə (Sirkeyi, Şireyi, Sıxsalxım, Qara sirkeyi və s.) qədərdir. Bunlardan 10 üzüm sortu Azərbaycan ET Üzümçülük və Şərabçılıq İnstitutunun Kolleksiya bağında saxlanılır. Ümumiyyətlə Kolleksiya bağında 310-a qədər aborigen və introduksiya olunmuş üzüm sortları becərilir ki, onlardan 243-ü Azərbaycanın yerli sortları olub, 100-ə qədəri texniki istiqamətlidir.

Üzüm, həyat formasına görə 30 metrə qədər hündürlükdə və gövdəsinin diametri 50 sm-ə çatan lian bitkisidir. Şaquli yaşıllaşdırma işləri üçün qiymətli bəzək bitkisi olmaqla yanaşı, ərzaq və tibbi sənayesi üçün də mühüm təsərrüfat əhəmiyyəti kəsb edir. Bu baxımdan üzümün istifadə edilmə tarixi çox qədimdir və demək olar ki, insanın ilkin təsərrüfat fəaliyyəti ilə sıxı bağlıdır. Üzüm, insan tərəfindən çox-çox qədim zamanlardan bəri becərildiyinə və xalq seleksiyasının mühüm obyektinə çevrilməsinə baxmayaraq müasir dövrümüzdə də dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda da elmi-tədqiqat idarə və müəssisələrinin tədqiqat obyekti olaraq qalmaqdadır. Bu baxımdan verilimiş işin məqsədi Abşeron yarımadasında əkilib becərilən texniki üzüm sortlarının fenoloji fazalarının gedişi, böyümə və inkişafetmə xüsusiyyətlərinin öyrənilməsindən və mövcud qanunauyğunluqlarının aşkar edilməsindən ibarətdir.

MATERİAL VƏ METODLAR

Tədqiqatın materialını Az ET Üzümçülük və Şərabçılıq İnstitunun Ampeloqrafik Kolleksiya bağında əkilib becərilən 13 sort və hibrid formaya daxil olan üzüm tənəkləri təşkil etmişdir. Tədqiq olunan üzüm sort və formalarının fenoloji xüsusiyyətlərinin öyrənilməsində M.A.Lazarevski (Лазаревский, 1961, 1963), keçmiş Ümumittifaq Bitkiçilik İnstitutu (Программа и методика изучения сортов, 1970) və M.V.Amanov (Аманов, 2006) tərəfindən işlənib hazırlanmış üsullardan istifadə edilmişdir. Fenoloji müşahidə aparılarkən üzüm tənəklərində şirə axımının başlanması, tumurcuqların açılması, zoğların inkişafı, çiçəkləmə, çiçiklərin tökülməsi və zogların yetişməsi, həmçinin xəzanlama kimi fazalara diqqət yetirilmiş və onların başlanma, gedişat və sona çatma müddətləri müəyyən edilmişdir. Zoğların boyatma dinamikası və tənəyin boy gücü M.A.Lazarevski (Лазаревский, 1963), S.H.Makarov (Макаров, 1964) və M.V.Amanovun (Аманов, 2006) təkmilləşdirilmiş

üsullarından istifadə olunaraq öyrənilmişdir. Tənəklərin vegetasiya müddəti tumurcuqların açılmasından gilələrin tam yetişməsinə qədər olan müddət kimi qəbul edilmişdir (Ампелография Азербайдсанской ССР, 1973).

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Kənd təsərrüfatı bitkilərindən hər il sabit məhsulun alınmasında sort, ekoloji şərait və bitkilərin yetişdirilmə texnologiyası əsas şərtlərdəndir. Bu amillər üzüm bitkisindən alınan son məhsulların (şərab, şirə, süfrə üzümü, mövuc, kişmiş və s.) keyfiyyətinin formalaşmasına birbaşa təsir edir (Авидзба, 2000).

Qeyd edək ki, hər bir bölgədə sortların fenologiyasını bilmək müxtəlif aqrotexniki əməliyyatların (budama, suvarma, gübrələmə, çiləmə, meyvə yığımı və s.) vaxtının planlaşdırılmasında, üzüm sortlarında əlavə və süni tozlandırma vaxtının müəyyən edilməsində və seleksiya işləri üçün vacibdir (Səlimov, 2003).

Bunları nəzərə alaraq Abşeron şəraitində tədqiq olunan üzüm sortlarının tənəklərində şirə axımının başlanması, tumurcuqların açılması, zoğların inkişafı, çiçəkləmə, çiçiklərin tökülməsi və zogların yetişməsi, həmçinin xəzanlama kimi fazalarının öyrənilməsinə dair elmi-tədqiqat işləri aparılmışdır.

Tədqiqatların nəticəsi göstərmişdir ki, tədqiq olunan sortlarda şirə hərəkətinin başlanması mart ayının ikinci, üçüncü və aprel ayının birinci ongünlüyünü əhatə etmişdir. Öyrənilən sortlarda 2007-ci ildə erkən yazda havanın nisbətən soyuq keçməsi nəticəsində şirə hərəkətinin başlanması bir qədər gecikərək mart ayının 30-u və aprel ayının 2-si tarixlərinə təsadüf etmişdir.

Şirə hərəkətindən sonra növbəti faza tumurcuqların açılması da havanın gündəlik və bitkinin kök sisteminin yerləşdiyi torpağın temperaturundan əhəmiyyətli dərəcədə asılıdır. Məlumdur ki, təsərrüfatlarda yetişdirilən üzüm sortlarından yüksək məhsul əldə etmək və tənəkdə polyarlığı aradan qaldırmaq üçün budama aparılır. Bu zaman sortun və bölgənin xüsusiyyətlərindən asılı olaraq tənəklərə müxtəlif yük normaları verilir. Yazda tənək üzərində saxlanılmış gözcüklərdən zoğlar inkişaf edir. Tənək üzərində saxlanılmış tumurcuqların əksəriyyəti inkişaf etmiş, onların müəyyən hissəsi müxtəlif səbəblərdən (qış şaxtaları, mexaniki təsirlər və s.) məhv olmuş, bəziləri isə açılmadan tənək üzərində qalmışdır. Gözcüklərin salamat qalması həm də, sortun bioloji xüsusiyyətlərindən (zoğların yetişmə dərəcəsi və s.) və hava şəraitindən asılıdır (Стоев, 1971; Məmmədov və Süleymanov, 1978).

Aparılan tədqiqatlardan müəyyən olunmuşdur ki, öyrənilən sortlarda tumurcuqların açılma faizi 73 (Xindoqnı) – 96.8% (İzabella) arasında dəyişmiş və bu göstərici Doyna (96.3%), Rkasiteli (93.0%), Şirvanşahı (92.0%) sortlarında və Tavkveri x Qara Lkeni (93.0%), Tavkveri x Xindoqnı (92.6%) hibrid formalarında Bayanşirə nəzarət sortunda (91.0%) üstünlük təşkil etmişdir (cədvəl1). Tədqiq olunan üzüm sortlarında və hibrid formalarında tumurcuqların açılması aprel ayı ərzində təsadüf edir. 2005-2006-cı illərdə tumurcuqların açılması əsasən aprel ayının birinci və ikinci ongünlüyünə, 2007-ci ildə isə bu faza bir qədər gec, həmin ayın üçüncü ongünlüyünə təsadüf etmişdir (Rkasiteli, Həməşərə sortları istisna olmaqla).

Üzüm sortlarında vegetasiya fazalarının başlanması və gedişi havanın gündəlik temperaturundan (fəal və səmərəli temperatur) asılı olub, tumurcuqların açılmasından gilələrin yetişməsinə qədər olan müddət ilə havanın orta gündəlik temperaturu arasında müsbət korrelyasiya əlaqələri vardır (Лазаревский, 1961, 1963; Стоев, 1971; Тагиев, 1984; Фисиенко и Серпуховитина 1998).

Sortların bioloji xüsusiyyətlərindən asılı olaraq tənəklərdə əmələ gəlmiş zoğların bir qismi məhsulsuz, bir qismi isə məhsullu (üzərində çiçək salxımı olan) olur. Məhsullu zoğların üzərində isə əsasən bir, iki və bəzi hallarda isə üç salxım əmələ gəlir. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, öyrənilən sortların tənəklərində çiçək salxımları adətən zoğlarda yeddinci buğuma qədər əmələ gəlir və əsasən ən çox III-V buğumlarda yerləşir. Məhsullu zoğlar Həməşərə sortunun tənəklərində yalnız 1 salxımlı, Bayanşirə, Xindoqnı, Mədrəsə, Şirvanşahı, Tavkveri, Rkasiteli, İzabella, Kəpəz, Göy-göl sortlarının tənəklərində 1-2 salxımlı, Bəhrəli, Şirəli sortlarının tənəklərində isə 1-3 salxımlı olmuşdur. Tənəklərin çətirini şərti olaraq 3 yarusa böldükdə salxımlar əsasən birinci yarusda, bəzi tənəklərdə isə ikinci yarusda paylanır.

Sortdan asılı olaraq çiçək salxımlarında 50-1200-ə qədər, bəzi mənbələrə görə isə 200-dən 1500-ə qədər çiçək qönçələri olur (Məmmədov və Süleymanov, 1978; Şərifov, 1988). Bu qönçələr sortdan asılı olaraq 7-14 gün ərzində çiçəkləmə fazasına keçirlər. Çiçəkləmənin başlanması öyrənilən sortlarda may ayının sonu və iyun ayının birinci ongünlüklərini əhatə edir. 2006-cı ildə isə qeyd olunan sortlarda çiçəkləmənin başlanması fazası bir qədər gec baş verərək əsasən iyun ayının birinci ongünlüyündə müşahidə olunmuşdur. Həmin ildə çiçəkləmənin başlanması Doyna sortunda nisbətən tez (27 may), Tavkveri sortunda isə nisbətən gec (6 iyun) baş vermişdir. Çiçəkləmə 6-10 gün ərzində başa çatmışdır. Bu fazadan sonra mayalanmış yumurtacıqların böyüyərək gilə-

lərə çevrilməsi prosesi yumurtalıqların yumrulaşması, ağızcıq və sütuncuqların itirilməsi ilə başlanır. Çiçək və yumurtalıqların qismən tökülməsi meteoroloji, patoloji, fizioloji səbəblərdən asılıdır. Üzümçülükdə sortdan asılı olaraq, 30-60% çiçəklərin tökülməsi normal hesab olunur (Şərifov, 1988). Tədqiq olunan sortların tənəklərində aprel ayının birinci və ikinci ongünlüklərinə, yəni çiçəklənmənin 3-5 günündə çiçəklərin qismən tökülməsi müşahidə olunur. Gilələrin yetişməyə başlaması tədqiq olunan sortlarda avqust ayının birinci və ikinci ongünlüyünü əhatə etmişdir. Bu faza Tavkveri (2-9 avqust), Tavkveri x Qara Lkeni – Göy-göl (2-6 avqust), Bayanşirə (2-10 avqust) sortlarında nisbətən tez baş vermişdir. Gilələrin tam yetişməsinə qədər olan müddət sortların bioloji xüsusiyytlərindən (gilələrin şəkərtoplama qabiliyyətindən və intensivliyindən və s.), havanın gündəlik orta temperaturundan və s. amillərdən asılı olaraq 20-50 gün və daha artıq zaman ərzində davam edə bilir. Gilələrin tam yetişməsi Rkasiteli (24.VIII-10.IX), Şirvanşahı (8-16.IX), Mədrəsə (14-20.IX) sortlarında digərlərinə nisbətən tez baş vermiş, tumurcuqların açılmasından gilələrin tam yetişməsinə qədər olan vegetasiya müddəti müvafiq olaraq (orta hesabla) – 149; 147; 145 gün təşkil etmişdir. Bu faza Doyna (12-18.X) və İzabella (4-10.X) sortlarında isə nisbətən gec baş vermiş, vegetasiya müddətləri müvafiq olaraq – 184 və 172 gün təşkil etmişdir. Tumurcuqların açılmasından gilələrin tam yetişməsinə qədər olan vegetasiya müddəti 140-145 gün davam edən sort – gec, 145-150 gün və daha artıq davam edən – sort çox gec yetişən hesab olunur (Лазаревский, 1963; Аманов, 2006). Bu baxımdan Abşeron şəraitində yetişdirilən və tədqiq olunan texniki üzüm sortlarının vegetasiya müddəti 145 (Mədrəsə) – 184 gün (Doyna) arasında dəyişməklə, gec və çox gec yetişirlər. Tədqiq olunan sortlarda xəzanlamanın başlanması isə oktyabr ayının sonu və noyabr ayının əvvəlinə təsadüf edir. Xəzanlamanın başlanması İzabella sortunda 10-12 noyabr, Doyna sortunda isə 10-11 noyabr tarixində baş vermişdir.

Abşeron şəraitində salınmış Ampeloqrafik Kolleksiya bağında becərilən 13 sort və formanın birillik zoğlarının inkişaf dinamikasının və yetişmə dərəcəsinin öyrənilməsinə dair tədqiqatlar aparılmışdır. Bunun üçün öyrənilən hər bir sortdan 15 tənək götürülərək hər tənək üzərində iki zoğ nişanlanmış və may ayının əvvəllərindən başlayaraq 10 gündən bir ölçülmüşdür. Öyrəndiyimiz sortların birillik zoğlarının boyatma gücü – zəif boyatan (1m-ə qədər), orta boyatan (2m-ə qədər), güclü boyatan (2-3m), çox güclü boyatan (3m-dən yuxarı) kimi qiymətləndirilmişdir (Лазаревский, 1963; Аманов, 2006).

İlin hava şəraitindən və aqrotexniki tədbirlərin kompleksindən asılı olaraq öyrəndiyimiz texniki üzüm sortlarının birillik zoğlarının inkişaf dinamikası və ümum orta uzunluğu bir-birindən kifayət qədər fərqlənirlər. Qeyd etmək lazımdır ki, oktyabr ayının 16-da ölçmə apararkən məlum olmuşdur ki, öyrənilən sortların birillik zoğlarının orta uzunluğu 195.4 (Bayanşirə) – 290.0 sm (Həməşərə) arasında təşkil edir. Bayanşirə (195.4 sm), Rkasiteli (198.5 sm), Bəhrəli (199.0 sm) sortlarının tənəkləri orta, Xindoqnı (230.7 sm), Tavkveri (246.4 sm), Göy-göl (261.7 sm), Mədrəsə (268.8 sm), Şirvanşahı (272.4 sm), Həməşərə (290.0 sm) sortları – güclü, İzabella (321.2 sm) sortu isə çox güclü boy atır.

Aparılan ölçmələrdən məlum olmuşdur ki, üzüm sortlarının inkişaf və boy dinamikasının gündəlik artımı da kifayət qədər fərqlidir. Belə ki, tumurcuqların açılmasından çiçəklənmənin sonuna qədər (iyun ayının I və II ongünlüyü), yəni meyvələr əmələ gələnə qədər bu proses sürətlə gedir, sonra isə get-gedə zəifiəyir. Ölçmə və hesablamalar göstərir ki, bu müddətdə ayrı-ayrı sortlar zoğların böyüməsinin 65%-ə qədərini başa çatdırır. İyun ayının sonuna qədər ayrı-ayrı sortlarda birillik zoğların gündəlik artımı 2.6-4.4 sm arasında təşkil etməklə, Bayanşirədə (2.8 sm), Bəhrəlidə (2.8 sm), Göy-göldə (4.5 sm), Həməşərədə (3.6 sm), Xindoqnıda (2.8 sm), Mədrəsədə (3.2 sm), Şirvanşahıda (3.6 sm), Rkasitelidə (2.6 sm), Tavkveridə (3.1 sm), İzabellada (4.4 sm) bir qədər intensivlik müşahidə olunmuşdur. Zoğların gündəlik artımı iyul ayının əvvəllərindən oktyabrın ortalarına qədər olan müddətdə kəskin surətdə azalaraq 0.6 (Bəhrəli) – 1.1 sm (Xindognı) həddində müşahidə olunmuşdur. Ümumiyyətlə tənəklərdə ümumi boyatmanın 78-95 %-i iyulun 2-ci yarısına qədər həyata keçmiş olur. Tədqiqat illərində üzüm sortlarının birillik zoğlarının inkişaf dinamikası ilə yanaşı onların yetişməyə başlaması, davametməsi və sona çatması da fenoloji müşahidələrlə izlənmişdir. Məlum olmuşdur ki, Abşeron şəraitində becərilən və tədqiq olunan üzüm sortlarının birillik zoğları avqust ayının birinci ongünlüyündə yetişməyə başlayır və getdikcə intensivləşməyə başlayır. Gilələrin yetişməyə başlaması və tam yetişməsi müddətində zoğların böyümə surəti kəskin azalır, nəhayət zoğ böyümədən tamamilə dayanır. Zoğlarda odunlaşma prosesi daha da surətlə gedir. Bu vaxt, zoğun əsasından başlayaraq V-VII buğumlarında yetişmə yavaş və bərabər ölçüdə (10-15 günə) gedir, sonra VIII-X buğumlarında isə birdən-birə, yəni 2-3 günə yetişir. Yetişmənin dinamikasındakı bu sıçrayış əksər üzüm sortlarında müşahidə olunmuşdur (Cədvəl 2). Gilələrin tam yetişməsi dövründə (sentyabrın axırları və oktyabrın əvvəlləri) tədqiq olunan üzüm sortlarının zoğların yetişmiş hissəsi 103 (Xindoqnı) – 170 sm (İzabella) arasında dəyişmişdir. Oktyabrın 1-ci

Cədvəl 1. Tədqiq olunan üzüm sortlarının fenoloji göstəriciləri, vegetasiya və inkişaf xüsusiyyətləri (2005-2007-ci illər)

Sortlar	Şirə hərəkətinin başlanması	Tumurcuqlarn açılması və zoğların inkişafı	Tumurcuqların açılma miqdarı, %	Çiçəkləmə		Zoğların yetişməyə başlaması	Gilələrin yetişməsi		Xəzanlamanın başlanması	Vegetasuya müddəti gün
				başlanması	sonu		başlanması	tam yetişmə		
1	2	3	4	5	6	7	8	9	10	11
Bayanşirə (nəzarət)	24.III / 20.III-1.IV	18.IV. / 16.IV-20.IV	91.0 / 86,3-98,2	28.V / 22.V-2.VI	4.VI / 30.V-8.VI	4.VIII / 1.VIII-10.VIII	5.VIII / 2.VIII-10.VIII	29.IX / 26.IX-2.X	25.X / 23.X-30.X	164 / 162-168
Xındoqnu	20.III / 16.III-28.III	17.IV. / 12.IV-23.IV	73,1 / 68,8-76,0	30.V / 26.V-2.VI	6.VI / 2.VI-9.VI	4.VIII / 1.VIII-8.VIII	13.VIII / 10.VIII-6.VIII	21.IX / 18.IX-22.IX	10.XI / 2.XI-25.XI	155 / 149-158
Mədrəsə	23.III / 18.III-30.III	25.IV. / 24.IV-26.IV	81,0 / 72,0-86,0	31.V / 30.V-3.VI	6.VI / 7.VI-10.VI	7.VIII / 2.VIII-10.VIII	9.VIII / 5.VIII-12.VIII	17.IX / 14.IX-20.IX	3.XI / 28.X-20.XI	145 / 142-148
Həməşərə	23.III / 18.III-30.III	10.IV. / 9.IV-10.IV	87,7 / 78,0-93,0	1.VI / 30.V-4.VI	9.VI / 7.VI-11.VI	9.VIII / 9.VIII-10.VIII	11.VIII / 6.VIII-16.VIII .	27.IX / 20.IX-1.X	11.XI / 4.XI-20.XI	156 / 146-162
Şirvanşahı	21.III / 16.III-30.III	18.IV. / 13.IV-25.IV	92,0 / 88,0-96,0	31.V / 28.V-3.VI	8.VI / 6.VI-10.VI	2.VIII / 1.VIII-3.VIII	9.VIII / 4.VIII-12.VIII	12.IX / 8.IX-16.X	8.XI / 30.X-20.XI	147 / 136-156
Bayanşirə x Semilyon hibridi-Bəhrəli	23.III / 18.III-1.IV	19.IV. / 14.IV-28.IV	87,0 / 72,8-94,6	30.V / 26.V-3.VI		2.VIII / 1.VIII-2.VIII	9.VIII / 6.VIII-12.VIII	29.IX / 26.IX-30.X	10.XI / 4.XI-20.XI	162 / 151-169
Aliqote x Bayanşirə hibridi - Şirəli	26.III / 20.III-2.IV	15.IV. / 14.IV-30.IV	83,4 / 78,6-92,3	30.V / 28.V-2.VI	7.VI / 5.VI-9.VI	6.VIII / 4.VIII-8.VIII	10.VIII / 6.VIII-14.VIII	27.IX / 25.IX-29.IX	9.XI / 2.XI-20.XI	160 / 148-168
Tavkveri x Qara Lkeni hibridi - Göygöl	23.III / 18.III-30.III	19.IV. / 14.IV-30.IV	92,0 / 89,3-96,2	30.V / 26.V-6.VI	5.VI / 2.VI-12.VI	9.VIII / 3.VIII-10.VIII	4.VIII / 2.VIII-6.VIII	27.IX / 26.IX-30.IX	11.XI / 3.XI-25.XI	161 / 149-169

1 saylı cədvəlin davamı

1	2	3	4	5	6	7	8	9	10	11
Tavkveri x Xin-doqnu hibridi-Kəpəz	25.III / 20.III-1.IV	20.IV. / 12.IV-29.IV	92,6 / 90,2-96,2	28.V / 26.V-3.VI	5.VI / 1.VI-11.VI	7.VIII / 4.VIII-10.VIII	11.VIII / 8.VIII-14.VIII	1.X / 28.IX-2.X	9.XI / 4.XI-20.XI	164 / 150-174
Tavkveri	26.III / 21.III-2.IV	18.IV. / 13.IV-26.IV	81,0 / 74,3-86,0	29.V / 25.V-6.VI	6.VI / 2.VI-12.VI	11.VIII / 10.VIII-12.VIII	5.VIII / 2.VIII-9.VIII	26.IX / 20.IX-2.X	8.XI / 6.XI-11.XI	160 / 147-173
Rkasiteli	27.III / 22.III-2.IV	11.IV. / 9.IV-13.IV	93,0 / 90,6-97,2	28.V / 24.V-3.VI	4.VI / 1.VI-8.VI	5.VIII / 2.VIII-10.VIII	7.VIII / 1.VIII-10.VIII	29.VIII / 24.VIII10.IX	29.X / 26.X-1.XI	149 / 146-154
Izabella	26.III / 20.III-2.IV	19.IV. / 16.IV-20.IV	96,8 / 90,6-98,2	2.VI / 1.VI-3.VI	8.VI / 7.VI-9.VI	2.VIII / 1.VIII-3.VIII	9.VIII / 7.VIII-10.VIII	7.X / 4.X-10.X	17.XI / 10.X-30.XI	172 / 168-176
Doyna	27.III / 22.III-2.IV	14.IV. / 10.IV-20.IV	96,3 / 94,2-98,0	23.V / 21.V-27.V	30.V / 28.V-3.VI	2.VIII / 1.VIII-2.VIII	14.VIII / 8.VIII-18.VIII	15.X / 12.X-18.X	17.XI / 10.X-30.XI	184 / 175-188

*Qeyd: kəsrin surəti – orta qiymət, məxrəci kənar hədlər.

Cədvəl 2. Tədqiq olunan üzüm sortlarının yaşıl zoğlarının yetişmə dinamikası (2005-2006-cı illər üzrə orta)

Sortlar	Vaxtlar üzrə zoğların yetişmiş hissələri (sm-lə)													Zoğun ümumi uzunluğu, sm	Yetişmiş hissə, %
	5.VIII	15.VIII	25.VIII	4.IX	14.IX	24.IX	4.X	14.X	24.X	3.XI	13.XI	23.XI	2.XII		
Bayanşirə (nəzarət)	2	10	22	31	56	82	106	131	152	164	171	180	186,8	195,4	95,6±2,4
Xindoqnı	4	11	20	32	57	80	103	128	146	160	176	185	193,3	230,7	83,8±11,4
Mədrəsə	7	12	19	28	46	52	108	128	152	182	200	219	228,0	268,8	84,8±13,4
Həməşərə	2	16	32	56	101	118	135	157	178	200	208	226	233,2	290,0	80,4±16,8
Şirvan-Şahı	6	20	30	60	81	116	152	180	200	208	214	220	225,5	272,4	82,8±11,7
Bayanşirə x Semilyon hibridi – Bəhrəli	5	20	40	71	100	116	130	148	162	169	175	182	188,7	199,0	94,8±3,7
Aliqote x Bayanşirə hibridi – Şirəli	2	10	36	50	76	100	130	146	162	184	196	207	212,7	240,6	88,4±10,6
Tavkveri x Xindoqnı hibridi – Kəpəz	-	18	34	58	88	114	131	148	166	172	187	200	209,7	214,0	98,0±0,67
Tavkveri x Qara Lkeni hibridi – Göy-göl	2	14	40	70	114	136	168	180	193	200	206	216	223,4	261,7	85,4±11,3
Tavkveri	-	13	28	54	96	122	140	160	172	181	190	198	207,0	264,4	84,0±11,6
Rkasiteli	2	6	14	26	38	62	108	124	153	160	171	180	189,2	198,5	95,3±3,2
İzabella	13	27	46	82	119	145	170	190	202	220	237	246	252,5	321,2	78,6±13,4
Doyna	4	15	56	100	126	142	160	182	200	216	225	236	241,5	250,0	96,6±3,2

ongünlüyündə ayrı-ayrı sortlarda zoğların 56.7 – 67.3% yetişməsi müşahidə olunur. Zoğların yetişmə intensivliyi aylar üzrə müxtəlif olaraq, 25 avqust tarixindən başlayaraq 24 oktyabra qədər daha intensiv yetişirlər. Bu müddətdə zoğlar orta hesabla gündə 2.0 (Bəhrəli) – 2.8 sm (Həməşərə, Şirvanşahı) uzunluğunda yetişmişdir. Payızda qısa günlərin başlanması, orta sutkalıq temperaturun aşağı düşməsi, gündüz və axşam saatlarında temperatur tərəddüdü zoğların yetişməsinə mənfi təsir edir (Негруль; 1968). Abşeron şəraitində tədqiq etdiyimiz üzüm sortlarının birillik zoğlarının yetişmə dərəcəsinin göstəriciləri də vacib bioloji xüsusiyyətlərdir. Zoğların yetişmə dərəcəsi sortlarda 78.6% (İzabella) – 95.6% (Bayanşirə) arasında dəyişməklə geniş diapazonda qiymət alır. Rkasiteli, Bəhrəli sortlarının zoğları da digərlərinə nisbətən yaxşı yetişərək müvafiq olaraq 95.6, 94.8 % təşkil etmişdir. Digər sortlarda isə bu göstərici 80.4-85.4% arasında qeydə alınmışdır. Ən yaxşı göstərici İzabella sortunda qeydə alınmışdır və 78.6% təşkil etmişdir. Zoğları - 50%-ə qədər yetişən–çox pis, 50-65% yetişən – pis, 65-80% yetişən – kafi, 80% və daha artıq yetişən-yaxşı, 100%-ə qədər yetişən isə - çox yaxşı hesab olunur (Лазаревский, 1963; Аманов, 2006). Abşeron şəraitində yetişdirilən və tədqiq olunan texniki sortlar arasında zoğları çox pis, pis yetişənlər yoxdur. İzabella sortunun zoğları kafi yetişərək 78.6 % təşkil etmişdir. Digər sortların zoğları isə yaxşı və çox yaxşı yetişmişdir (80.4-98.0%).

Aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, Abşeron şəraitində yetişdirilən 13 texniki üzüm sortları tənəklərinin fenoloji fazaları ardıcıl olaraq həyata keçir, yaxşı inkişaf edir, birillik zoğları normal böyüyür, qənaətbəxş və yüksək səviyyədə yetişirlər.

ƏDƏBIYYAT

Amanov M.V., Səlimov V.S., Quliyev T.İ. (2006) Qarabağ bölgəsi üzümçülüyün ən qədim diyarlarından biridir. AzET Üzümçülük və Şərabçılıq İnstitutunun əsərləri: 35-42.

Məmmədov R., Süleymanov C. (1978) Üzümçülük. Bakı, Maarif: 303 s.

Səlimov V.S. (2003) Qarabağ-Milli bölgəsi şəraitində yayılmış aborigen və introduksiya olunmuş üzüm sortlarının bioloji-təsərrüfat və texnoloji xüsusiyyətlərinin öyrənilməsi: kənd təsərrüfatı elm. nam. dis. Bakı: 176 s.

Şərifov F.H. (1988) Üzümçülük. Bakı, Maarif: 296 s.

Şıxlinski H.M. (2006) Kolleksiya sortlarının və seleksiya üzüm formalarının əsas göbələk xəstəliklərinə davamlılıqlarının qiymətləndirilməsi. AMEA Xəbərləri, biologiya elmləri seriyası **5-6:** 158-165.

Авидзба А.М. (2000) Агроэкологические ресурсы как основа стратегии возросдения виноградарства Крыма: Автореф. дис. кандидата сельскохозяйственных наук. Институт Винограда и Вина «Магарач», Ялта: 29 с.

Аманов М.В. (2006) Изучение биоморфологических, хозяйственно-технологических особенностей дикорастущего винограда Азербайдсана и применение в селекции устойчивых видов. Автореф. дисс. … доктора сельскохозяйственных наук. Баку: 41 с.

Ампелография Азербайдсанской ССР (1973) Баку: Азербайдсанское Государственное Издательство: 492 с.

Качалов А.А. (1970) Деревья и кустарники. М., Лесная промышленность: 408 с.

Кискин П.Х. (1974) Создание обращенных поисковых систем растений на примере ампелографии. Составление определителей растений по плодам и семенам. Киев, Наукова думка: 67-74.

Лазаревский М.А. (1961) Роль тепла в жизни европейской виноградной лозы. Ростов-на Дону, Издательство Ростовского Университета: 100 с.

Лазаревский М.А. (1963) Изучение сортов винограда. Ростов-на-Дону, Издательство Ростовского Университета: 152 с.

Макаров С.Н. (1964) Научные основы методики опытного дела в виноградарстве. Кишинев. Карта Молдовеняскэ: 280 с.

Негруль А.М. (1968) Виноградарство и виноделие. Москва, Колос: 512 с.

Прилипко Л.И. (1955) Род *Vitis* L. – Виноград – Üzüm. Флора Азербайджана. Баку: АН Азерб. ССР, **VI**: 203-207.

Программа и методика изучения сортов плодовых, субтропических орехоплодных культур и винограда. (1970) Л., ВИР: 233 с.

Стоев К.Д. (1971) Физиологические основы виноградарства. София, Издательство Болгарской Академии Наук: 369 с.

Тагиев А.Г. (1984) Биологические и хозяйственно-технологические особенности интродуцированных столовых сортов винограда в условиях Апшерона. Автореф. дис. кандидата сельскохозяйственных наук. Грузинский Научно-Исследовательский Институт Садоводства, виноградарство и виноделия. Тбилиси: 27 с.

Фисиенко А.Н., Серпуховитина К.А. (1998) Сад и виноградник. Краснодар, Советская Кубань: 368 с.

Шулгина В.В. (1958) Род Виноград *Vitis* L. Деревья и кустарники СССР. М.-Л.: АН СССР **IV:** 608-645.

М.Р. Курбанов, Х.Т. Абасова

Фенология, Особенности Роста и Развития Выращиваемых в Условиях Апшерона Технических Сортов Винограда

В статье представлены результаты исследовательской работы по изучению прохождения фенологических фаз: распускания почек, образования побегов, образования и созревания плодов выращиваемых в условиях Апшеронского полуострова технических сортов винограда, а также особенностей их роста и развития.

M.R. Gurbanov, Ch.T. Abasova

Phenology, Peculiarities of Growth and Development of Technical Grapevine Varieties Cultivated Under the Absherons Conditions

The results of the research work on studying of the phenological phases: bud birst, shoot formation, forming and maturing of fruits, as well peculiarities of growth and development of technical grapevine varieties cultivated under conditions of the Absheron peninsula are given in the article.

Böyük Qafqazın Cənub-Şərq Hissəsində Eldar Şamının Oduncaq-Halqa Xronologiyası

V.S. Fərzəliyev, F.S. Seyfullayev, A.A. Şərifova
AMEA Mərkəzi Nəbatat Bağı, Bakı AZ1073, Badamdar şossesi 40, e-mail: v.farzaliyev@yahoo.co.uk

Böyük Qafqazın cənub-şərq hissəsinin Şamaxı rayonu ərazisindən toplanmış eldar şamı (*Pinus eldarica* Medw.) nümunələrinin dendroxronoloji metodlar vasitəsilə oduncaq-halqa xronologiyası, ilk və son oduncağın formalaşması xüsusiyyətləri öyrənilmişdir. Alınmış xronologiyadan ərazinin iqlim və ekoloji şəraitinin öyrənilməsində, antropogen təsirlərin müəyyən olunmasında, meşə yanğınlarının, fitopatoloji və entomoloji təsirlərin aşkarlanmasında və s. istifadə oluna bilər.

Açar sözlər: *oduncaq, xronologiya, eldar şamı, iqlim, standartlaşdırma*

GİRİŞ

Müasir qloballaşma, urbanlaşma, sənayeləşmə, qlobal istiləşmə, müxtəlif təbii kataklizmalar, radioaktiv qəzalar və digər bu kimi xoşagəlməz hadisələr canlı aləmin biomüxtəlifliyi üçün də bir sıra ekoloji problemlərin meydana gəlməsinə zəmin yaradır (Qurbanov, 2005). Yerüstü ekosistemlərə müxtəlif təsirlərlə bağlı qlobal, regional və lokal problemlərin öyrənilməsində oduncaq-halqa məlumatları xüsusi əhəmiyyət daşıyır. Ağacların illik halqalarının biologiyası ətraf mühitdə gedən iqlim, geomorfoloji və ekoloji dəyişkənlikləri müəyyən etməyə imkan verir. Müasir dövrümüzdə dendroxronoloji metodlardan meşə ekosistemlərinin məkan-zaman dinamikasının öyrənilməsində və uzun zaman dövründə iqlim-ekoloji amillərin bərpasında geniş istifadə olunur. Dendroxronoloji tədqiqatların meşə ekosistemlərinin və ətraf mühitin dəyişməsinə və transformasiyasına təsir edən müxtəlif təbii və antropogen amillərin qiymətləndirilməsindəki rolu olduqca əhəmiyyətlidir (Шиятов, 2000; Николаева и Савчук, 2008).

Meteoroloji məlumatlara görə Yer kürəsində son yüz ildə orta temperatur 0,74ºC artmış və bu artım tədricən yüksəlməkdədir (МГЭИК, 2007). Azərbaycan Respublikası ərazisinin böyük hissəsi arid zonada yerləşir. Bu ərazilərdə səhralaşmanın intensivliyi və torpağın şoranlaşması müşahidə olunur. Bütövlükdə ölkə ərazisində havanın temperaturunun illik və fəsillər üzrə formalaşması əsasən ərazinin relyef xüsusiyyətlərindən asılıdır (Məmmədov, 2009).

MATERİAL VƏ METODLAR

Tədqiqat ərazisi Böyük Qafqazın cənub-şərq yamacının ətəklərində yerləşən Şamaxı rayonunu əhatə edir. Tədqiqatların obyektini Bakı-Şamaxı magistral şossesinin ətrafında əkilmiş eldar şamından toplanmış oduncaq halqa nümunələri təşkil edir. Ərazinin coğrafi yerləşmə koordinatları – N (şımal en dairəsi) - 40°31'0.25", E (şərq uzunluq dairəsi) - 48°49'0.54", dəniz səviyyəsindən yüksəkliyi 704 m-dir (Şək.1).

Dağlıq, kəskin parçalanmış relyefə xas ərazidən sinoptik-iqlim xüsusiyyətlərinə görə Quba-Şamaxı rayonunun Dağlıq yarımrayonuna aiddir. İqlimi qışı quraq kezən mülayim-istidir. Orta illik temperatur 5-7ºC-ə qədər, yanvar -4-6ºC (şaxta), iyul 14-15ºC və az olur. İllik yağıntılar 400-600 mm, maksimum yağıntılar yazın axırı və yayın əvvəli müşahidə olunur (Şək.2). Tufan və duman tez-tez baş verir, qar örtüyü sabit və davamlıdır (Museyibov, 1989). Qar örtüyü 30 sm-dək olur.


Ərazi üçün kəskin və orta dərəcədə parçalanmış dağətəyi landşaftı xasdır. Əsas üstünlüyü dağ kserofit elementlərinə uyğun yarımsəhra bitkiliyi təşkil edir. Torpağı zəif şoranlaşmış, şabalıdıdır (Məmmədov, 2007). Torpaq örtüyü nisbətən az eroziyaya uğramışdır. Torpaq eroziyasının qarşısının alınmasında meşəmeliorasiya tədbirlərinin aparılması ilə süni meşəliklərin salınması, mövcud olanların məhsuldarlığının artırılmasına və mühafizəsinə ehtiyac vardır.

İynəyarpaqlılar dendroxronoloji analizlər üçün daha çox informativ olduğundan məhz tədqiqat obyekti olaraq şam növü seçilmişdir. Belə ki, şam növləri uzunömürlü olub, ekoloji baxımdan plastikdirlər və nisbətən daha dəqiq illik halqalarla xarakterizə olunurlar. Bu növlərdə radial böyümə xarici amillərin təsirinə çox həssasdır. Ərazidə olan eldar şamları magistral avtomobil yolu kənarında əkilmişdir. Təbii bərpa demək olar ki, müşahidə olunmur. Bunun əsas səbəbi iyul və avqust aylarında havaların çox quraq keşməsi, isti yay günlərinin cücərtilərə zərərli təsiri ilə izah oluna bilər. Eyni zamanda


ərazidə ara-sıra mal-qara otarılması da müşahidə olunur. Təbii bərpaya kömək məqsədilə meşə təsərrüfatı tədbirlərinin aparılmasına ehtiyac vardır. Ağaclıqlarda olan şamların hündürlüyü orta hesabla 12-15 m, dıametri 32-38 sm-dir. Vegetasiya dövrü 180-190 gün davam edir.

Lokal oduncaq-halqa xronologiyasının yaradılması üçün eyni ərazidə bitən 10 ağacdan (hər birindən 2 nümunə olmaqla) nümunələr götürülmüşdür. Model ağaclar eyni yaşda seçilmişdir. Nümunələr isveç burğusu vasitəsilə götürülmüşdür. Götürülmüş nümunələrin illik halqalarının eni ölçülmüşdür. Nümunələrin yalançı (ikiləşmiş) və əskik (yaranmayan) halqalarının aşkarlanmasında və etibarlılığının yoxlanılmasında COFECHA proqramından istifadə olunmuşdur (Holmes, 1998).

Ümumilikdə bitkilərin inkişafına 2 tip (sabit və dəyişkən) ekoloji amillər təsir göstərirlər. Sabit amillər torpaq şəraiti, yamacların cəhəti və meyilliliyi ilə, dəyişkən amillər isə iqlim (orta illik və aylıq temperatur və yağıntının miqdarı, küləyin təsiri və s.) amilləri ilə bağlıdır. Dendroxronoloji işlər əsasən iqlim amilləri üzərində aparıldığından ARSTAN statistika proqramında sabit amillərlə olan tendensiyalar aradan qaldırılmış, indeks kəmiyyətləri tapılmışdır (Akkemik, 2004; Cook, 1885; Cook and Kairiukstis, 1990; Holmes, 1983, 1998). Hər nümunə üçün fərdi xronologiya alındıqdan sonra, əsas (ortalama) xronologiya yaradılmışdır.



Şəkil 1. Tədqiqat ərazisi.



Şəkil 2. Şamaxı rayonunun iqlim göstəriciləri

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Oduncaq-halqa xronologiyasının ümumiləşdirilmiş sırasının yaradılması zamanı ilk növbədə hər nümunə nişanlanmış və yaş tarixləri qeyd olunmuşdur (Şək.3).

Nümunələrin etibarlılığı yoxlanılımış, yalançı və əskik halqalar müəyyən olunmuşdur. İllik halqaların eni ölçüldükdən sonra halqa qalınlıqlarında heç bir əməliyyat aparılmadan, halqaların eninin illərlə əlaqəli qrafiki qurulmuşdur (Şək.4). Bu qrafiklə ümumilikdə illik halqa qalınlığına təsir edən yaşla bağlı dəyişkənlikləri, nümunə toplanan ərazinin digər xüsusiyyətlərini müəyyən etmək mümkündür (Akkemik, 2004). Xüsusən, ağacların cavan və yaşlı olmasını, bitmə şəraitinin əlverişli və ya qeyri-əlverişli olduğunu asanlıqla aşkar etmək olur. Əldə edilən qrafikdən nümunələrin standart hala gətirilməsi üçün istifadə olunmuşdur.

Ağacların böyümə və inkişafı ilə ətraf mühit arasında önəmli bir əlaqə vardır. Belə ki, illik halqalar əmələ gələn zaman bitkilərin bitdiyi mühitin torpaq şəraitindən, yamacların cəhətindən, meyilliyindən və s.-dən asılı olaraq onların qalınlığında uzunmüddətli tendensiyalar müşahidə olunur. Ən çox müşahidə olunan tendensiya isə yaşla bağlıdır. Belə ki, ağac yaşlandıqca onun illik halqaları daralmağa başlayır. İqlim təsirlərinin öyrənilməsi üçün bu tendensiyaların aradan qaldırılması və nümunələrin normal hala gətirilməsi vacib şərtlərdən biridir. Bu məqsədlə nümunələr ARSTAN proqramında standartlaşdırılmışdır (Şək.5).

Eyni zamanda bu standartlaşdırılmanı müxtəlif düsturlarla ifadə etmək mümkündür. Nümunə kimi düzxətli reqressiya modelini göstərmək olar (Akkemik, 2004). Model əsasən xronologiya stabil, azalan və ya artan bir tendensiya göstərdiyi halda tətbiq olunur. Bu modeldə:

$$y_t = a + bt$$

düsturundan istifadə olunur. Düsturda y_t – gözlənilən reqressiya kəmiyyəti, a və b reqresiya əmsalları, t isə 1-dən n-ə qədər olan illər olub, x oxunun qiymətləridir.

Modelin tətbiqindən sonra indeks kəmiyyətləri əldə edilir. Belə ki, indeks kəmiyyətləri iki üsulla əldə oluna bilər. Birincisində real kəmiyyətlərin (illik halqaların real qalınlığının) reqresiyada əldə edilən qiymətlərə bölünməsiylə, ikincisində isə real kəmiyyətlərdən reqresiyadan aldığımız kəmiyyətlərin çıxılmasıyla əldə olunur. Bu yolla xronologiya standart hala gətirilir:


$$I_t = W_t / y_t$$

$$I_t = W_t - y_t$$


I_t - t ilindəki halqa qalınlığı əmsalı

W_t - t ilində ölçülən illik halqa qalınlığı


y_t - reqressiyadan əldə edilən t ilindəki kəmiyyət.



Şəkil 3. Nişanlanmış illik halqaların görünüşü.



Şəkil 4. İllik halqaların eninin illər üzrə dəyişməsi.




Şəkil 5. Alınan əmsalların illər üzrə dəyişməsi qrafiki.

Əvvəlki illərdə formalaşan halqalarda parenxim hüceyrəsi inkışafını davam etdirdiyindən özündən sonra formalaşan illik halqa qalınlıqlarına təsir edir. Belə ki, t ilində formalaşan halqa ilə t-1, t-2, t-3... t-k ilində formalaşan halqalar arasında avtokorrelyasiya əlaqəsi vardır. Bu əlaqə əmsallarla ifadə olunur. Əmsallar nə qədər böyük olsalar "t" ilindəki halqanın əvvəlki illərlə daha çox əlaqəli olduğu məlum olur. Avtokorrelyasiyanı aradan qaldırmaq və illik halqaya yalnız t ilindəkı təsirləri müşahidə etmək üçün avtoreqressiya modellərındən istifadə olunur. Bu işlər avtokorrelyasya əmsallarından istifadə edilməklə aparılır və uyğun avtoreqressiya (AR) modeli alınır.

Tədqiqatlar zamanı iqlim xarakterli olmayan tendensiyalar və əvvəlki illərin halqaları ilə olan avtokorrelyasiya əlaqələri aradan qaldırıldıqdan sonra (Şək.5) bütün nümunələr üçün fərdi xronologiya yaradılmışdır. Bu xronologiya hər bir ilə aid halqa qalınlığı ilə eyni ildəki reqressiya kəmiyyətlərinin fərqindən alınmışdır. Hər nümunə üçün fərdi xronologiya alındıqdan sonra, əsas (ortalama) xronologiya yaradılmışdır (Şək.6).

Eldar şamında erkən oduncaq (earlywood) nazik divarlı, açıq rəngli və enli hüceyrələr yaratdığı halda, son oduncaq (latewood) qalın divarlı, tünd rəngli ensiz hüceyrələrlə xarakterizə olunurlar. Bu iki oduncaq zonasının xarakterik xüsusiyyətləri illik halqaları bir-birindən aydın seçməyə imkan verir. İllik halqaların sturukturunu genetik amillər müəyyən edirsə də, ekoloji amillər isə hüceyrə ölçülərinin dəyişməsinə səbəb olur. Tədqiqat ərazisində eldar şamının illik halqalarında erkən oduncaq aprel-iyul aylarında, son oduncaq isə avqust-sentyabr aylarında formalaşır. Temperatur və yağıntı may ayında illik halqaların normal inkişafı üçün daha münasib olur. Dəyişən ekoloji amillərdən asılı olaraq nümunələr bu göstəricidən (illik halqaların orta qalınlığı) daha böyük və daha kiçik ola bilirlər. İllik halqada son oduncağın formalaşması üçün münasib şərait sentyabr ayının sonlarında müşahidə olunur. Buna görə də ərazidən toplanmış nümunələrin illik halqalarının orta qalınlıqları kiçik olmuşdur.

Standard yayınmalar ölçmənin əsas dəyişmə istiqamətini göstərir. Meyillik (skew) və normadan kənarlaşma (kurtosıs) əmsalları standartlaşdırma metoduna görə bitkilərin yayılma sahəsində yüksək (hıgher-oder) təsirləri qiymətləndirir (Cook and Kairıukstis, 1990). Orta həssaslıq ildən-ilə halqa qalınlığının necə dəyişdiyini göstərir. Bu əmsal 0,25-0,35 arasında dəyişərsə nümunə iqlim analizləri üçün yararlı hesab olunur. İllik-halqa xronologiyasının statistik xarakteritikasında orta həssaslıq əmsalının 0.323 olması nümunənin iqlim analizlərinə yararlı olduğunu göstərir (Cəd.1).



Şəkil 6. Eldar şamının ümumiləşdirilmiş əsas xronologiyası.

Cədvəl 1. İllik-halqa xronologiyasının statistik xarakteristikası

Başl. ili	Son ili	Cəmi	Orta index	Nüm. sayı	Standard yayınmalar	Meyl. əmsalı	Nor. kən. əmsalı	Həssaslıq əmsalı
1984	2009	26	1	10	0,253	0,532	2,246	0,323

Orta həssaslığın yüksək olması bu xronologiyadan iqlim və ekoloji şəraitin bərpası məqsədilə istifadə etməyə imkan verir. Xronologiyadan göründüyü kimi (Şək.6), 1989, 1990, 2004, 2009 -cu illərdə iqlim şəraiti qeyri-əlverişli, 1987, 1991, 1994, 2007-cı illərdə daha əlverşli, qalan illərdə isə normal keçmişdir. Alınmış xronologiyadan ərazinin iqlim və ekolojı şəraitinin öyrənilməsində, antropogen təsirlərin müəyyən olunmasında, meşə yanğınlarının, fitopatoloji və entomoloji təsirlərin aşkarlanmasında istifadə oluna bilər.

ƏDƏBİYYAT SİYAHISI

Akkemik Ü. (2004) Dendrokronoloji. İstanbul: Dilek ofset, 260 s.

Qurbanov M.R. (2005) Texnogen landşaftlarda bitən bitkilərin generativ orqanlarının biomorfoloji dəyişkənlikləri. AMEA-nın Xəbərləri (biologiya elmləri seriyası), **5-6:** 52-64.

Cook E. R., Kairiukstis L. A. (Eds.) (1990) Methods of Dendrochronology. Applications in the Environmental Sciences. Dordrecht-Boston-London: Kluwer Acad. Publ, 394 p.

Cook E.R. (1985) A time series analysis approach to the tree-ring standardization. PhD Thesis, University of Arizona, USA, 183 p.

МГЭИК (2007) Изменения климата (2007): Обобщающий доклад. Вклад рабочих групп I, II и III в Четвертый доклад об оценке Межправительственной группы экспертов по изменению климата [Пачаури, Р.К., Райзингер, А., и др.]. МГЭИК, Женева, Швейцария, 104 с.

Museyibov M.A. (1989) Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarıf, s. 152.

Məmmədov Q.Ş. (2007) Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, s. 429.

Məmmədov R.M. (2009) Azərbaycanda landşaft planlaşdırılması (ilk təcrübə və tətbiq). Bakı, 142 s.

Николаева С.А., Савчук Д.А. (2008) Климатогенная реакция деревьев сосны на юге Томский области. Journal of Sıberıan Federal Unıversıty. Bıology. **4(1):** 400-413.

Шиятов С.Г. и др. (2000) Методы дендрохронологии. Красноярск, 80 с.

Holmes R.L. (1983) Computer-assisted quality control in tree-ring dating and measurement. Tree-Ring Bull. **43:** 69-78.

Holmes R.L. (1998) Dendrochronology program library – users manual. Laboratory of Tree-Ring Research, Unıver. of Arizona, USA.

В.С. Фарзалиев, Ф.С. Сейфуллаев, А.А. Шарифова

Древесно-Кольцевая Хронология Сосны Эльдарской в Юго-Восточной Части Большого Кавказа

С помощью дендрохронологических методов изучены деревесно-кольцевая хронология, особенности формирования ранней и поздней древесины образцов эльдарской сосны, отобранных на территории Шемахинского района, расположенного в юго-восточной части Большого Кавказа. Созданная хронология способствует изучению климатических и экологических условий, антропогенных, фитопологических и энтомологических воздействий, лесных пожаров и др.

V.S. Farzaliyev, F.S. Seyfullayev, A.A. Sharifova

Tree-Ring Chronology of Eldar Pine in the South-Eastern Part of the Great Caucasus

By using dendrochronological methods were studied the tree-ring chronology and features of forming of the early and late wood *Pinus eldarica*’s samples selected from the Shamakhi territory localized in south-easterm part of the Great Caucasus. The developed chronology make possible to study climatic and environmental conditions, antrophogenic, phytopathological, entomological influences, forest fires, etc.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 33-38 (2009)

Трематодофауна Пресноводного Моллюска *Melanopsis Praemorsa* (L., 1758) в Водоемах Азербайджана. Морфология Новой Виргульной Церкарии – *Cercaria Agstaphensis 32* (*Trematoda*: *Lecithodendroidea*)

А.А. Манафов
Институт зоологии Национальной Академии Наук Азербайджана, E-mail: asif_abbasoglu@mail.ru

Приводятся рисунки, описание морфологии и дифференциальный диагноз новой виргульной церкарии - *Cercaria agstaphensis 32* из пресноводного переднежаберного моллюска *Melanopsis praemorsa* (L., 1758). Особое внимание уделено вооружению тегумента, строению железистого аппарата, экскреторной и пищеварительной систем и других морфологических особенностей индивидуального строения церкарий, имеющие важное таксономическое значение.

Ключевые слова: виргула, *Melanopsis praemorsa, Cercaria agstaphensis*

Моллюски и заражающие их партениты все чаще становятся основой для проведения разнообразных популяционно-экологических исследований, одного из главных направлений развития современной паразитологии. Не менее важное значение приобретают данные об организации партенит (спороцист и редий) и церкарий. Без таких сведений невозможно создание филогенетической системы и самих *Trematoda*, и всего таксона *Neodermata* в целом. Основой для исследований подобного рода были и остаются фаунистические работы, выполненные на уровне современных требований к описанию морфологии партенит и церкарий, включающему и детальный анализ хетотаксии. Несмотря на давние традиции проведения исследований по фауне партенит и личинок трематод, в настоящее время их суммарные результаты трудно признать удовлетворительными. Фрагментарность наших знаний о паразитофауне моллюсков во многом обусловлена еще и тем, что далеко не все группы моллюсков обследованы достаточно полно. В первую очередь, объектами изучения оказались обитатели умеренного пояса - легочные моллюски и ограниченное число видов «переднежаберных» (биттинии, вальваты, живородки и т. п.). В то же время трематодофауна многих групп переднежаберных моллюсков, особенно богатейшая фауна субтропиков и тропиков, обследована крайне отрывочно и неполно, или вообще не исследована. С этой точки зрения, представители древнего и архаичного сем. *Melanopsidae* представляют особый интерес. Широко распространенные в ряде регионов моллюски *Melanopsis praemorsa* (сем. *Melanopsidae*) (крупные популяции этих прозобранхий зарегистрированы на территории Индии, Средней Азии и Средиземноморья (Иззатуллаев и Старобогатов, 1984; Старобогатов, 1970) - практически оставались не исследованными.

Первые работы, выполненные в 70-х годах на небольшой территории в долине р. Риони в Западной Грузии позволили установить, что паразитофауна меланопсид характеризуется удивительным богатством и разнообразием, крайне своеобразна по своему составу, и включает ряд патогенных для человека и животных видов (Оленев, 1979; Оленев и Добровольский, 1972, 1975). По личному сообщению А.А. Добровольского у *Melanopsis praemorsa* ими обнаружено 18 видов церкарий, относящихся по меньшей мере к 10 семействам трематод. Однако подробно описано лишь 7 видов: *Philophthalmus rhionica,* жизненный цикл которого позднее был подробно изучен И.А. Тихомировым (Тихомиров, 1980 а, б); *Cercaria rhionica VII* - личиночная стадия одного из видов рода *Echinochasmus;* два вида циатокотилидных церкарий, гетерофиидная личинка, определенная как *Metagonimus yokogawai* (Takahashi 1929); личинка, относящаяся к сем. *Sanguinicolidae* и фуркоцеркария, относящаяся к сем. *Strigeidae*, и по комплексу морфологических признаков приближающаяся к церкариям рода *Cotylurus*. Некоторое время спустя К.В. Галактионовым был проведен детальный анализ циатокотилидных церкарий и было показано, что наряду с *C. rhionica XI* имеется еще одна морфологически сходная форма, ранее не дифференцированная. Расшифровка жизненного цикла показала, что это *Mesostephanus appendiculatus* (Галактионов, 1980; Галактионов и др., 1980). В этом же районе работали М.Г. Джавелидзе и Е.А. Чиаберашвили, описавшие два вида стилетных церкарий. Однако лишь для

Cercaria ginetsinskaja, относящейся к группе *Virgulae*, приводится более или менее точная характеристика (Джавелидзе и Чиаберашвили, 1973).

На территории Азербайджана, моллюски *Melanopsis praemorsa* (L.) весьма обычны (Манафов, 2008), однако, до наших исследований они никогда не становились объектом паразитологических исследований. Серьезная теоретическая и практическая значимость такого исследования предопределила главную цель нашей работы - комплексное изучение фауны трематод, партениты и церкарии которых развиваются в пресноводных молюсках *Melanopsis praemorsa* (L.) (Melanopsidae, Mesogastropoda - «Prosobranchia») на территории Азербайджана.

Изучение фауны партенит и церкарий моллюсков *Melanopsis praemorsa* из водоемов Азербайджана, проводимые с 1982 года позволили установить, что трематодофауна меланопсид характеризуется удивительным богатством и разнообразием, уникальна по своему составу и практически не сопоставима с фауной трематод, паразитирующих в легочных моллюсках и обычных прозобранхиях умеренной зоны - биттиниях, живородках, вальватах. В состав этой фауны входит ряд видов, потенциально и реально патогенных для человека и животных.

До настоящего времени у моллюска *Melanopsis praemorsa* из водоемов Азербайджана обнаружены церкарии 41 вида трематод, из которых 33 изучены и описаны впервые. 2 вида церкарии переописаны. Подавляющее большинство из обнаруженного числа видов (23) относится к группе *Xiphidiocercariae* (отр. *Plagiorchiida*). Из них 21 вид относится к морфологической группе *Virgulae* (надсем. *Lecithodendroidea*), а 2 - лишенные виргулы, к группе *Microcotylae*. Отряд *Heterophyida* представлен 7 видами, отр. *Strigeidida* - 5 видами (подотр. *Cyathocotylata* - 4 вида и подотр. *Strigeata* - 1), отр. *Schistosomatida* 2 видами (сем. *Sanguinicolidae* - 1; сем. *Schistosomatidae* - 1). Семейства *Echinostomatidae*, *Notocotylidae* и *Philophthalmidae* - каждое представлено одним-двумя видами. Выявлены многочисленные устойчивые очаги метагонимоза, гетерофиоза, описторхоза, хаплорхиоза, нотокотилеза, циатокотилеза, и потенциальной возможности возникновения очагов шистозоматоза (дерматитной формы), филофтальмоза и др.

МАТЕРИАЛЫ И МЕТОДЫ

Сборы моллюсков проводились с 1982 по 2008 гг. в различных водоемах Азербайджана (рр. Кура, Акстафачай, Джогаз, Кюрекчай, Акстафинское, Мингечаурское, Варваринское, Шемкирский, Еникендский водохранилища, ручейки, родники, артезианы, каналы и другие водоемы Южного склона Большого Кавказа и Северо-Восточного склона Малого Кавказа). Всего было обследовано 96 718 экз. моллюсков. При этом обнаружены церкарии 41 вида трематод, относящихся как минимум к 11 семействам (Манафов, 1990,1991, 2009).

Для выявления зараженных особей, собранных моллюсков рассаживали по одному в стеклянные заполненные водой сосуды объемом 25 $см^3$ на 12-24 часа и более. Проверки моллюсков на зараженность были произведены под бинокуляром марки МБИ-1. Изучение морфологии партенит, церкарий и метацеркарий проводилось на живом материале на вполне зрелых особях. Для этой цели использовали микроскопы: МБИ-3, МБИ-15 с фазово-контрастным устройством ФК-4. Все рисунки выполнены с помощью рисовального аппарата РА-4. Для выявления сенсилл у церкарий использован как традиционный метод импрегнации нитратом серебра (Гинецинская и Добровольский, 1963), так и различные его модификации (Алекперов и Манафов, 1995). Для анализа хетотаксии использована номенклатура Ришар (Richard, 1971) с дополнениями Байссад-Дюфо (Bayssade-Dufour, 1979).

Измерение партенит и личинок проводили на материале, фиксированном в 4 %-ном формалине, и 3 %-ном растворе нитрата серебра. В каждом случае для измерения брали по 15 экз. личинок.

Результаты измерений были обработаны статистически: вычислены средняя арифметическая величина (M), среднее квадратическое отклонение (G), и коэффициент вариации (CV) (Плохинский, 1978). Рассчитана ошибка экстенсивности инвазии (m_p) для каждого водоема (Петрушевский и Петрушевская, 1960).

Впервые описанным видам присвоены названия *Cercaria agstaphensis* с соответствующими порядковыми номерами по названию реки Акстафачай. Один вид, обнаруженный лишь в русле р. Куры назван *Cercaria kurensis.*

ОПИСАНИЕ

CERCARIA AGSTAPHENSIS 32

Тело церкарии грушевидной формы (Рис.1). Хвост толстый и массивный, сильно сократимый. В сокращенном состоянии его длина не превышает 2/3 длины тела личинки (Таблица 1).

Ротовая присоска крупная, ее диаметр в два раза превышает диаметр брюшной. Это соотношение присосок сохраняется у церкарий, анестезированных нагреванием и фиксированных азотнокислым серебром. При фиксации горячим формалином это соотношение оказывается иным. Наружное отверстие брюшной присоски вытянуто в продольном направлении.

Покровы личинки очень густо вооружены мелкими шипиками одинаковых размеров. Когда личинка сокращается, или изгибается, возникает впечатление, что на вентральной поверхности и ближе к заднему концу тела шипики располагаются более густо. Брюшная присоска целиком вооружена относительно длинными шипиками. Вооружение хвоста необычное. Его передняя половина несет две относительно узкие полосы шипиков, расположенные, соответственно дорзально и вентрально. Задняя же вооружена шипиками по всей поверхности. По направлению от переднего конца к заднему заметно увеличивается и длина шипиков.

Ротовая присоска вооружена тонкостенным и относительно маленьким стилетом. Плечики стилета выражены хорошо. Стволик постепенно расширяется по направлению к заднему концу и заканчивается хорошо развитой бульбой. Длина стилета незначительно, а форма плечиков и стволика более заметно варьируют.

Округлое ротовое отверстие располагается субтерминально. Оно ведет в постепенно сужающуюся полость, стенки которой образуют небольшую, слабо развитую, просто устроенную виргулу. Префаринкс не выражен. По сути дела, зачаточная глотка вплотную прилегает к ротовой присоске. Пищевод и ветви кишечника рассмотреть не удается.

Железы проникновения представлены тремя одинаковыми по размерам парами клеток. Первая пара целиком располагается перед брюшной присоской, латерально.




Рис. 1. *Cercaria agstaphensis* 32
А — Общий вид и вооружение личинки, Б — Схема строения церкарии, В — Стилет.

Таблица 1. Размеры *Cercaria agstaphensis* 32

Показатели	Размеры (min-max)	Средний размер (M)	Среднее кв.отклонение (σ)	Коэффициент вариации (CV)
Длина тела	0.078 - 0.088 (0.083 - 0.086)	0.083 0.085)	0.003 (0.001)	3. 61 (1.18)
Ширина тела	0.057 - 0.074 (0.057 - 0.061)	0.063 (0.059)	0.004 (0.001)	6.35 (1.69)
Длина хвоста	0.055 - 0.077 (0.057 - 0.062)	0.062 (0.060)	0.006 (0.001)	9.68 (1.67)
Диаметр ротовой присоски	0.026 - 0.029 (0.023 - 0.026)	0.027 (0.026)	0.001 (0.001)	3.30 (3.85)
Диаметр брюшной присоски	0.016 - 0.018 (0.013 - 0.014)	0.017 (0.013)	0.001 (0.001)	5.88 (7.69)
Стилет	0.013 - 0.014 (0.013 - 0.014)	0.013 (0.013)	0 (0)	0 (0)

Примечание: В таблице без скобок приводятся результаты измерения личинок фиксированных в 4%-ном формалине, а в скобках – в 3%-ном нитрате-серебра




Рис. 2. *Cercaria agstaphensis* 32
А — железистые образования церкария,
Б — Спороциста.

Вторая пара клеток локализована на уровне передней половины брюшной присоски, ближе к середине тела. А третья пара располагается на уровне задней половины брюшной присоски. Клетки первой и второй пар содержат крупнозернистый секрет, слабо преломляющий свет. Клетки третьей пары тоже содержат крупнозернистый секрет, но сильно преломляющий свет. При вытягивании передней половины тела церкарии, клетки передней, латеральной пары сильно смещаются к середине тела личинки, и все железы располагаются двумя продольными рядами (Рис.2А).

Протоки желез проникновения направляются к стилету двумя латеральными пучками. Наружные поры протоков первой и второй пар открываются у основания острия стилета, а третьей пары – на уровне его заднего конца.

В субтегументалъном слое личинки имеются крупные цистогенные клетки, заполненные тонкозернистым секретом, слабо преломляющим свет.

Экскреторная формула: 2[(2+2+2)+(2+2+2)] = 24. Передний продольный собирательный канал проходит по наружному краю протоков желез проникновения, затем по диагонали пересекает клетки первой и второй пар, направляясь в сторону брюшной присоски. Достигнув внутреннего края клеток второй пары, поворачивает в латеральном направлении по границе между клетками второй и третьей пар, огибает клетки третьей пары по их наружному краю. Место слияния переднего и заднего собирательных каналов располагается на уровне задней границы третьей пары клеток.

Главные собирательные каналы по середине между брюшной присоской и мочевым пузырем образуют несколько плотно упакованных петель и впадают в мочевой пузырь. Описанное выше взаимное положение желез проникновения и каналов выделительной системы характеризуется высокой степенью постоянства.

Мочевой пузырь имеет широко U-образную форму с короткими ветвями. Его стенки образованы клетками с зернистой цитоплазмой. Экскреторная пора открывается у основания хвоста.

Половой зачаток слабо дифференцирован, состоит из двух участков, дорзо-латерально огибающих брюшную присоску. Четкую границу этих участков проследить очень трудно.

В паренхиме личинки имеются многочисленные мелкие капли жира, расположенные равномерно по всему телу.

Церкарии развиваются в спороцистах разной формы и величины, размеры которых в зависимости от возраста сильно варьируют (Рис.2Б). Молодые спороцисты содержат только зародыши. А зрелые спороцисты одновременно содержат 6-8 сформированных церкарий и 4—6 зародышей. Длина спороцист - 0.176-0.3 мм, ширина - 0.077-0.121 мм.

ОБСУЖДЕНИЕ

В связи с учетом наличия серьезных трудностей при работе по установлению систематического положения той или иной виргулидной церкарии, и учетом их предполагаемых причин, нами в работе охвачены все существенные детали церкарий, способствующие составлению полноценной морфологической характеристики обнаружений. От всех известных, и притом достаточно полно описанных виргулидных церкарий обладающих тремя парами желез проникновения (Hall, 1959, 1960; Hall and Groves, 1963; Seitner, 1951;

Sewell, 1922, 1931**)**, что повидимому следует особенно подчеркнуть, *C.agstaphensis 27* отличается формой, размерами и строением виргулы, а также очень необычным вооружением хвоста.

По форме стилета, а также по вооружению хвоста *C.agstaphensis 32* очень близка к личинкам *C.agstaphensis 27* и *C.agstaphensis 36* описанные нами (Манафов, 2009). Однако, очень существенны отличия по размерам, особенно по соотношению стилета к длины тела. Кроме того, эти личинки существенно разнятся и по степени развития виргулы: у *C.agstaphensis 27* соотношения (пропорции) длины тела личинки к длине стилета составляет в среднем 1 к 9, а у *C.agstaphensis 32* и *C.agstaphensis* 36 примерно 1 к 6. Кроме того, *C.agstaphensis 36* по своим размерам почти 1.5 раза крупнее. У последнего также совершенно другой характер вооружения тела и хвоста и она обладает лишь зачаточной формой виргулы.

Партениты описываемых личинок по форме, размерами, по количеству содержимым зародыш и церкарий, также существенно разнятся между собой.

C.agstaphensis 32 и *C.agstaphensis 27* очень близки и по внешнему виду, и по особенностями вооружения (особенно необычным вооружением хвоста). Однако в настоящее время идентифицировать эти две формы личинок не представляется возможным (до расшифровки их цикла развития). Отличия не очень большие, однако довольно устойчивые. Прежде всего, эти церкарии различаются строением и размерами стилетов. При всей вариабельности формы плечиков, у каждой церкарии длина стилетов постоянна: у *C.agstaphensis 27* стилет заметно короче, чем у *C.agstaphensis 32*. Отличаются и общие размеры личинок. Достаточно устойчивы различия и в расположении желез проникновения: у *C.agstaphensis 27* они никогда не образуют продольных рядов, что постоянно наблюдаются у активно ползающих по субстрату личинок *C.agstaphensis 32* (Рис.2А). Цистогенные клетки *C.agstaphensis 27* относительно мелки, обычно имеют овальную, или каплевидную форму, у которых практически не просматриваются ядра. А у *C.agstaphensis 32* они крупны, не имеют определенной формы, и практически всегда четко просматривается их ядра. Кроме того, у *C.agstaphensis 27* имеется тонкий, но длинный пищевод.

Место бифуркации последнего находится на уровне середины тела личинки, непосредственно на уровне переднего края клеток желез проникновения. У *C.agstaphensis 32* пищеварительная система не развита, просматривается лишь короткое начало пищевода.

В настоящее время трудно судить, каков ранг отмеченных выше различий между этими двумя личинками трематод: являются ли они видовыми, или речь идет о двух морфах одного вида. Но пока нет четкого ответа на этот вопрос, мы считаем целесообразным рассматривать эти два типа личинок как самостоятельные виды…

СПИСОК ЛИТЕРАТУРЫ

Алекперов И.Х., Манафов А.А. (1995) Модифицированный метод импрегнации и его преимущества // Зоол. журнал, М.: Изд-во Наука, **74(2):** 139-143.

Галактионов К.В. (1980) Жизненный цикл сосальщика Mesostephanus appendiculatus (Ciurea, 1916) Lutz, 1935 nec Martin, 1961. // Вестник ЛГУ, **21:** 27-34.

Галактионов К.В., Оленев А.В., Добровольский А.А. (1980) Два вида циатокотилидных церкарий из пресноводного моллюска Melanopsis praemorsa // Паразитология, **14(4):** 299-307.

Гинецинская Т.А., Добровольский А.А. (1963) Новый метод обнаружения сенсилл личинок трематод и значение этих образований для систематики. // Докл. АН СССР, **151(2):** 460-463.

Джавелидзе М.Г., Чиаберашвили Е.А. (1973) К изучению трематод пресноводных переднежаберных моллюсках (Prosobranchia) Грузии // Сообщ. АН Груз. ССР, **69(2):** 481-484.

Иззатуллаев З.И., Старобогатов Я.И. (1984) Род *Melanopsis* (*Gastropoda*, *Pectinibranchia*) и его представители, обитающие в водоемах СССР // Зоологический журнал, **63(10):** 1471-1483.

Манафов А.А. (1990) Фауна партенит и церкарий моллюсков Melanopsis praemorza (L.) из Северного Азербайджана // М., Деп. в ВИНИТИ, № 4360-В90, 168 с.

Манафов А.А. (1991) Фауна партенит и церкарий моллюсков *Melanopsis praemorsa* (L.) из Северного Азербайджана. // М., Деп. в ВИНИТИ. № 3524-В91, 103 с.

Манафов А.А. (2008) О видовом составе моллюсков рода Melanopsis // Azərbaycan zooloqlar cəmiqyyətinin əsərləri, I cild.Bakı: Elm, s. 147-152.

Манафов А.А. (2009) Морфология новой виргулидной церкарии из пресноводного моллюска *Melanopsis* praemorsa (L.) из водоемов Азербайджана // Ш международная

научная конференция «Горные экосистемы и их компоненты». Нальчик, 2009. Животный мир горных территорий. М.: Т-во научных изданий КМК: 81-85.

Оленев А.В. (1979) Фауна церкарий пресноводного моллюска *Melanopsis praemorsa* (L.) из Западной Грузии. // В кн.: Эколог. и экспер. паразитол. Л., ЛГУ, **2(2):** 30-41.

Оленев А.В., Добровольский А.А. (1972) Фауна личинок трематод пресневодного моллюска Melanopsis praemorsa (L) (Prosobranchia) из Западной Грузии // В кн.: I Всесоюзный симпозиум по болезням и паразитам беспозвоночных, Львов. Львовский Университет: 66-68.

Оленев А.В., Добровольский А.А. (1975) Фауна церкарий пресноводного моллюска Melanopsis praemorsa (L.) из Западной Грузии. // В кн.: Эколог. и экспер. паразитол. Л., ЛГУ, **1(1):** 73-96.

Петрушевский Г.К. Петрушевская М.Г. (1960) Достоверность количественных показателей при изучении паразитофауну рыб. // Паразитол. сбор. ЗИН АН СССР, М: Наука., **19:** 333-343.

Плохинский Н.А. (1978) Математические методы в биологии. // М.: МГУ. 264 с.

Старобогатов Я.И. (1970) Фауна моллюсков и зоогеографическое районирование континентальных водоемов. // Л.: Наука. 372 с.

Тихомиров И.А. (1980а) Жизненный цикл сосальщика Phılophthalmus rhionıca n.sp. // Вестн. ЛГУ, **(15):** 33-47.

Тихомиров И.А. (1980б) Жизненный цикл Philophthalmus rhionica sp. nov. (Trematoda: Philophthalmidae). //Автореф. дис. канд. биол. наук, Л., 20 с.

Bayssade-Dufour Ch. (1979) L'appareil sensoriel des cercaries et la systematique des trematodes digenetiques // Mem.Mus. nat. hist. natur. Ser. A. Zool. **113:** 81p.

Richard J. (1971) La chetotaxie des cercaires. Valeur systematique et phyletique. // Mem. Mus. nat. hist. natur. Serie A. **67:** 179 p.

Hall J.E. (1959) Studies on the life history of Mosesia chordelesia Mc-Müller, 1936 (Trematoda: Lecithodendriidae). // J. Parasitol., **45(3):** 327-336.

Hall J.E. (1960) Studies on Virgulate Xiphidiocercariae from Indiana and Michigan. // Amer.Midl.Natur., **63(1):** 226-245.

Hall J.E., Groves A.E. (1963) Virgulate Xiphidiocercariae from Nitoris dilatatus Conrad. // J. Parasitol, **49(2):** 249-263.

Seitner P.G. (1951) The life history of Allocreadium ictaluri Pearse, 1924 (Trematoda: Digenea). // J. Parasitol. **37:** 223-244.

Sewell R.B.S. (1922) Cercaria Indicae. // Ind. J. Med. Res. 10, supplement. **(1):** 370 p.

Sewell R. (1931) Cercarise nicobaricae // Ind. J. Med. Res. **18:** 785-806.

A.A. Manafov

Azərbaycanin Şirinsu Hövzələrində Yaşayan *Melanopsis Praemorsa* (L., 1758) Mollyuskunun Trematod Faunasi. Yeni Virqulali Serkarinin -*Cercaria Agstaphensis 32* (*Trematoda: Lecithodendroidea*) Morfologiyasi

Azərbaycanin şirinsu hövzələrində yaşayan *Melanopsis praemorsa* (L., 1758) mollyuskunda tapılan yeni virqulali serkarinin - *Cercaria agstaphensis 32* (*Trematoda: Lecithodendroidea*) orijinal şəkli, morfoloji təsviri və differensial diaqnozu verilir. Təqdim edilən materialda trematodların təbii təsnifatında çox mühüm əhəmiyyəti olan əlamətlərə - örtük toxumasının, vəzi toxumalarının, həzm və ifrazat sistemlərinin quruluşuna və virqulalı serkarilərin digər fərdi morfoloji xüsusiyyətlərinə xüsusi diqqət yetirilmişdir.

A.A. Manafov

Trematods Fauna of the Freshwater Mollusc *Melanopsis Praemorsa* (L., 1758) from Water Bodies of Azerbaijan. Morphology of Virgules Cercaria - *Cercaria Agstaphensis 32* (*Trematoda: Lecithodendroidea*)

The pictures, descriptions of morphology including drawings and differential diagnosis of closely related species of virgules cercaria - *Cercaria agstaphensis 32* from water bodies of Azerbaijan are provided. Attention is paid to peculiarities of armature, glandular apparatus, excretory and digestive systems, inclusions of parenchyma and other systems of cercaria, belonging to larvae of the super family *Lecithodendroidea*

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 39-42 (2009)

Meşə və Meyvə Ağaclarına Zərərverən Başlıca Həşəratların Sayının Tənzimlənməsində Entomofaqların Rolu

A.R. Əliyeva
AMEA Zoologiya İnstitutu

Məqalədə meşə və meyvə ağaclarına zərərverən həşəratların 16 növünün biotənzimlənməsində 89 növ parazit və yırtıcının (entomofaqın) fəaliyyət göstərməsi qeyd olunur. Onlardan 14 növünün təsərrüfat əhəmiyyəti olduğunu nəzərə alıb, onların bioekoloji xüsusiyyətləri, fenologiyası, uçuş dinamikası, sahibi yoluxdurma dərəcəsi öyrənilməklə zərərvericilərə qarşı mübarizədə inteqrir və bioloji üsullardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. Alınan nəticələrə əsasən təbiətdə faydalı həşəratların qorunub saxlanılması və parazit-sahib münasıbətlərində ekoloji tarazılığın bərpası təmin olunur.

Azərbaycan iqtisadiyyatının inkişafında meşə sənayesi və meyvəçilik əsas yerlərdən birini tutur. Bu məqsədlə də Respublika hökümətinin 2008-2015- ci illər üçün Dövlət Proqramında Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına və ərzaq təhlükəsizliyinə dair verdiyi sərəncamların həyata keçirilməsi əsas vəzifələrdən biridir.

Azərbaycanın, o cümlədən Lənkəran bölgəsinin iqlim-torpaq şəraitinin rənga-rəngliyi, əlverişli təbii coğrafi mövqedə yerləşməsi, müxtəlif meşə və meyvə ağac-larının becərilməsi üçün çox yararlı olması, meşəçiliyin və meyvəçiliyin böyük iqtisadi əhəmiyyətə malik olmasına imkan yarat-mışdır.

Aparılan elmi-tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, meşəçilik və meyvə-çiliyin intensiv inkişafına və təhlükəsizliyinə mane olan başlıca amillərdən biri də zərərverici həşəratlardır. Onlar meşə və meyvə ağaclarına zərər verməklə, məhsuldarlığı xeyli aşağı salırlar. Zərər-vericilərin meşə və meyvə bağlarına həd-dindən artıq ziyan vurmasına baxmayaraq, onların növ tərkibi, biologiyası, ekologiyası, yayılmaları və təbii düşmənlərinə dair adda-budda ədəbiyyat məlumatlarına (Abdinbəyova, 1995; Воронцов, 1984; Мамедов, 2004; Мирзоева, 2008) rast gəlinməsinə baxmayaraq, bu istiqa-mətdə hələ də geniş tədqiqat işləri aparılmamışdır.

Son illərdə kənd təsərrüfatı bitkilərinin müxtəlif zərərvericilərinə qarşı inteqrir və bioloji mübarizə üsullarından geniş istifadə edilməsi aktual məsələlərdən birinə çevril-mişdir. Bu baxımdan meşə və meyvə ağac-larının zərərvericilərinə qarşı bioloji müba-rizə üsullarının işlənib hazırlanmasında zərərvericilərin təbii düşmənlərinin, o cüm-lədən parazit və yırtıcılarının aşkar edilib öyrənilməsinin böyük əhəmiyyəti vardır.

Lənkəran bölgəsinin meşə və bağ sahələrində aparılmış çoxillik elmi- tədqiqat işləri nəticəsində 16 növ (Tək ipəksarıyan, Qızılqarın kəpənək, Yemişan kəpənəyi, Qızılgül yarpaqbükəni, Valehedici gözəlçə, Zolaqlı meyvə güvəsi, Alma güvəsi, Alma meyvəyeyəni, Gavalı meyvəyeyəni, Şərq meyvəyeyəni, Ağ amerika kəpənəyi, Qovaq yarpaqyeyəni, Qarağac yarpaqyeyəni, Alma çiçəkyeyəni, Gavalı mənənəsi, Kaliforniya çanaqlı yastıcası) zərərverici həşəratın sayının biotənzimlənməsində, 4 dəstəyə (Hy-menoptera, Coleoptera, Neuroptera, Lepi-doptera), 12 fəsiləyə (Braconidae-19 növ, İchneumonidae- 16 növ, Chalcididae-17 növ, Bethylidae-2 növ, Larvoevoridae- 7 növ, Sarcophagidae- 2 növ, Coccinellidae- 12 növ, Staphylinidae- 3 növ, Carabidae- 3 növ, Dermestidae- 4 növ, Chrysopidae- 3 növ, Syntomidae-1 növ) mənsub, aşağıda adları çəkilən 89 növ entomofaq aşkar olunmuş-dur. Onlardan 63 növü parazit, 26 növü isə yırtıcı həşəratlardandır.

Parazitlər:

Dəstə: *Hymenoptera* - Zarqanadlılar
Fəsilə: *Braconidae* - Brakonidlər

1. *Bracon hebetor Say.*⁺- Brakon hebe-tor
2. *Br.variegator Spin.*- Brakon variega-tor
3. *Br. intercessor Ness*.- Brakon inter-çessor
4. *Br. guttiger Wesm*.- Brakon guttiger
5. *Br. fumipennis*- Brakon fumipennis
6. *Agathis malvacearum Latr*.- Agatis malvacearum
7. *Microdus dimidiatus Nees.*- Mikrodus dimidiatus
8. *Macrocentrus linearis Nees*⁺- Makro-çentrus linearis
9. *M. ancylivorus Roh*⁺.- Makroçentrus ankulivoris
10. *Ascogaster quadridentata Wesm*- As-kogaster quadridentata
11. *A. annularis Nees*- Askogaster annu-laris
12. *Apanteles solitarius Nees*⁺- Apanteles solitarius
13. *A. fulvipes Nees*- Apanteles fulvipes

14. *A.spurius Wesm*.- Apanteles spurius
15. *Phanerotoma dentata Panz*- Fanero-toma dentata
16. *Orgilius laevigator Nees*- Orgilus lae-vigator
17. *Oncophanes lancealator Nees**- Onko-fanes lançealator
18. *Meteorus confinus Ruthe**- Meteorus konfinus
19. *M. versicolor Wesm*- Meteorus versi-kolor

Fəsilə*:* *Ichneumonidae* -İxneumonidlər

20. *Theronia atalantae Poda*.- Teronia at-lanta
21. *Nythobia armillata Grav.*[+]- Nutobiya armillata
22. *Pimpla turionella L*.- Pimpla turio-nella
23. *P. spuria Grav*.- Pimpla spuria
24. *P. examinator F*.- Pimpla examinator
25. *P. instigator F*.- Pimpla instigator
26. *İtoplectis europeator F*.- İtoplektis europeator
27. *İ.alternans Grav*.- İtoplektis alternans
28. *İ. maculator F*.- İtoplektis makulator
29. *Agrypon stenostiqma Thoms***- Agrupon stenostigma
30. *Herpectomis brunneicornis Grav*.- Herpestomus brunnikornis
31. *Chorinacus tricarinatus Holm*.- Xori-nakus trikarinatus
32. *Pristomerus vulnerator Grav*.- Pristo-merus vulnerator
33. *Scambus calobata Grav.*[+]- Skambus kolobata
34. *S. pomorum Ratz***- Skambus pomo-rum
35. *S. brevicornis Grav*.- Skambus brevi-kornis

Fəsilə: *Chalcidoidae*- Xalsidlər

36. *Eulophus chrysomella Nees*.- Eulofus xrusomella
37. *Entodon ovulorum Ratz*.- Entodon ovulorum
38. *Brachymeria intermedia Nees*.- Braxu-meriya intermediya
39. *Tetrastichus evonymellae Bche*- Tet-rastixus evonumella
40. *Ageniaspis fuscicollis Dalm.*[+]- Age-niaspis fuscicollis
41. *Paralitomastix variecornis Nees.*[+]- Pa-ralitomastix varikornis
42. *Monodontomerus obsoletus F*- Mono-dontomerus obsoletus
43. *Elasmus albipennis Thoms.**- Elasmus albipennis
44. *Trichogramma cacoeciae March*.- Tri-xoqramma kakoekiya
45. *Tr. evanescens West*- Trixoqramma evaneskens
46. *Aphytis mutilaspidus L*.- Afutis muti-laspis
47. *Aph. proclia Walk*.- Afutis proklia
48. *Archenomus longicornis Nik*.- Arxeno-mus longikornis
49. *Prospaltella berbesei How*. – Prospal-tella berbesi
50. *Cocophagus lycimnia Walk*.- Kokko-fagus lukimnia
51. *Anagyrus psedococci Westw*.- Ana-gurus psevdokokki
52. *Pseydophycus malinus Gahan*.- Pseu-dofikus malinus

Fəsilə: *Bethylidae* – Betilidlər

53. Perisierola qalicolla Kieff.[+]- Perisi-erola gallikolla
54. *Bethylus sp*.- Betulus sp.

Fəsilə: *Larvaevoridae*- Larvavoridlər

55. *Eurysthaea scutellaris R.D*.- Eurestea skutellaris
56. *E. larvarium L*- Eurestea larvarum
57. *Nemorilla maculosa Mg*.- Nemorilla maculosa
58. *N. floralis Fall*.- Nemorilla floralis
59. *Tachina praeceps Mg*.- Braçeps mil-çəyi
60. *Arrhinomiya inoxia mg*.- Arhinomiya milçəyi
61. *Phorosera silvestris R.-D*.- Faresia sil-vestri milçəyi

Fəsilə: *Sarcophagidae*- Sarkofaqlar

62. *Pseudosarcophaga mamillata Pand.*** - Sarkofaq mamillata
63. *Parasarcophaga portchinskyi R.**- Sarkofaq porçinski

Yırtıcılar:
Dəstə: *Coleoptera*- Böcəklər
Fəsilə: *Coccinellidae*- Koksinellidlər

64. *Chilocorus bipustulatus L*[+]- Xilokorus bipustulatus
65. *Ch. renipustulatus Scriba*.- Xilokorus renipustulatus
66. *Adalia bipunctata L.*[+]- İkinöqtəli ada-lia
67. *A.decimpunctata L***- Onnöqtəli ada-lia
68. *Coccinella septempunctata L*.- Yeddi-nöqtəli parabüzən
69. *Semiadalia notata L*.- Yeddinöqtəli notata
70. *Holysia sedecimpunctata L*.- Holuzi-ya parabüzəni
71. *Coccinella 14-punctata L*.- 14 nöqtəli parabüzən

72. *Adonia variegata Goeze.***- Adoniya variegata
73. *Scymnus frontalis F.***- Simnus fron-talis
74. *Stethorurus punctillum Ws.***- Ste-torus parabüzəni
75. *Radolia cardinalis Muls*.- Radoliya parabüzəni

Fəsilə: *Staphylinidae*- Stafilinidlər

76. *Oligata pustillima Garv.***- Oligata pustillum
77. *Staphylinus olens Mull*.- Stafilin olens
78. *Phylonthys splendeus F*.- Flontus splendus

Fəsilə: *Carabidae*- Karabidlər

79. *Calosoma sycophanta L.*+- Kolosoma sukofanta
80. *C. inguisitor Dej.***- Kolosoma in-gusitor
81. *Carabus auratus L*.- Karabus aurata

Fəsilə: *Dermestidae*- Gönyeyənlər

82. *Dermestes lardarius L.***+- Gönyeyən lardarius
83. *D. bicolor L.***- Gönyeyən bikolor
84. *D. ater L.***- Gönyeyən ater
85. *D. undulatus Brahm**.- Gönyeyən un-dulatus

Dəstə: *Neuroptera*-Torqanadlılar
Fəsilə: *Chrysopidae*- Qızılgözlər

86. *Chrysopa carnea Steph.*+- Xrusopa karnea
87. *Ch. septempunctata L*.- Yeddinöqtəli xrusopa
88. *Ch. perla L*.- Xrusopa perla

Dəstə: *Lepidoptera* – Kəpənəklər
Fəsilə: *Syntomidae* – Yalançı alabə-zəklər

89. *Syntomis phegea L***+. – Alabəzək suntomis fedeya

Şərti işarələr: * - Azərbaycan faunası üçün ilk dəfə qeyd edilir;
** - Lənkəran bölgəsi üçün ilk dəfə qeyd edilir;
+ - təsərrüfat əhəmiyyətli entomofaqlar

Qeyd olunduğu kimi entomofaqlar-dan 5 növü Azərbaycan faunası, 13 növü isə Lənkəran bölgəsi üçün ilk dəfə qeyd olunur. Aşkar edilmiş 89 növ parazit və yırtıcıdan 22 növü tək ipəksarıyanın, 12 növü qızılqarın kəpənəyin, 11 növü yemişan kəpənəyinin, 11 növü qızılgül yarpaqbükəninin, 18 növü valehedici gözəlçənin, 14 növü zolaqlı meyvə güvəsinin, 20 növü alma güvəsinin, 18 növü alma meyvəyeyəninin, 19 növü şərq meyvəyeyəninin, 16 növü ağ amerika kəpənəyinin, 13 növü qovaq yarpaqyeyə-ninin, 13 növ qarağac yarpaqyeyəninin, 16 növü alma çiçəkyeyəninin, 20 növü mənənələrin, 18 növü isə çanaqlı yas-tıcaların sayının biotənzimlənməsində fəaliyyət göstərirlər. Onlardan daha pers-pektivli hesab olunan və təsərrüfat əhəmiyyətinə görə seçilən 14 növ parazit və yırtıcının (*Bracon hebetor Say, Macro-centrus ancylivorus Roh., Apantelis solitarius Nees., Nythobia armillata Grav., Scambus colobata Ratz., Ageniaspis fus-cicollis Dalm., Paralitomastix variecornis Nees, Perisierola qallikolla Kieff., Chilo-corus bipustulatus L., Adalia bipunctata L., Colosoma sycophanta L., Dermestes lardarius L., Chrysopa carnea Steph., Sy-ntomis phegea L.*) bioekoloji xüsu-siyyətləri, fenologiyası, zərərvericilərin biotənzimlənməsində rolu, parazit-sahib münasibətləri və uçuş dinamikası, geniş öyrənilmiş, onlardan zərərvericilərə qarşı inteqrir və bioloji mübarizədə istifadə edilməsinin mümkünlüyü məqsədəuyğun hesab edilmişdir. Bununla yanaşı entomofaqların qorunub saxlanması, təbiətdə ekoloji tarazılığın bərpa edilməsi təmin edilir.

ƏDƏBİYYAT

Abdinbəyova A.Ə. (1995) Azərbaycanın zar-qanadlı cücüləri (*Hymenoptera, Braco-nidae*). Bakı, 469 s.

Воронцов А.И. (1984) Биологическая защи-та леса. Москва: лесная промышл, 264 с.

Мамедов З.М. (2004) паразиты вредных че-шуекрылых плодовых культур Азербай-джана и пути их в биологической защите, Баку: «Элм», 209 с.

Мирзоева Н.Б. (2008) Экологическая харак-теристика жуков – листоедов (*Coleoptera, Chrysomelidae*) Азербайджана.- Общ. Зоо-логов Азер-на, I том, «Элм», Баку, с.326-332.

А.Р. Алиева

Роль Энтомофагов в Регуляции Численности Основных Вредителей Плодовых и Лесных Насаждений

Установлено, что в регуляции численности 16 видов основных вредителей плодовых и лесных насаждений большую роль играют 89 видов паразитов и хищников. Из них 14 видов являются наиболее перспективными в биологическом методе борьбы с вредителями. Изучены их биологические особенности, распространение, фенология и динамика вылета, хозяйственное значение.

A.R. Aliyeva

Role Of Entomophages In Papulation Control Of Main Plant Pestis In Fruiter And Forest Plantings

The great role of 89 species of the parasites and predators in population control of 16 main species of fruiter and forest plantings were established. The 14 entomophage species are most perspective in biological method of struggle against plant pests. The biological peculiarities, distribution, phenology, flying dynamics and economical significance were studied.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 43-46 (2009)

Lənkəran Təbii Vilayətində Zirehli Koramalın (*Pseudopus Apodus* Pall.) Helmint Faunası Və Onun Landşaft-Ekoloji Təhlili

S.M. Musayeva
AMEA Zoologiya İnstitutu, Az1073, keçid 1128, məhəllə 504, Bakı, e-mail: Qarafataliyev@bk.ru

Tədqiqatlar zamanı Lənkəran tabii vilayətində hündürlük qurşaqları üzrə müxtəlif xarakterli landşaftlardan 136 zirehli koramal tədqiq edilmiş və onlardan 3 növ trematod, 3 növ sestod və 7 növ də nematod olmaqla cəmi 13 növ helmint aşkar edilmişdir. Məlum olmuşdur ki, düzənlik qurşağa (-7-200 m) daxil olan mulayim-rütubətli subtropik landşaftda 12 növ, quru-bozqır və yarımsəhra landşaftda 7 növ, dağətəyi qurşağa (200-500,700 m) daxil olan rütubətli subtropik landşaftda və orta dağlıq qurşağa (700-1600, 2000 m) daxil olan mülayim isti enliyarpaq dağ-meşə landşaftında isə hər birində 8 növ helmint aşkar edilmişdir.

GİRİŞ

Zirehli koramal Azərbaycanda dəniz sahillərıindən tutmuş 2000 m yüksəkliklərə qədər bütün biosenozlarda yayılmışdır. Yayıldığı ərazilərdə yüksək sıxlığa malikdirlər və biosenozların strukturunun dinamikasına ciddi təsir qöstərirlər.

Zirehli koramalın Azərbaycanda qeniş yayılmasına və yüksək sıxlığa malik olmalarına baxmayaraq onların helmint faunası planlı şəkildə bu vaxta qədər öyrənilməmişdir. Bu haqda yalnız ötəri malumatlar mövcuddur (Şarpilo, 1976; Fərzəliyev, 1974, 1977).

Bunları nəzərə alaraq 2008-ci ildən başlayaraq Lənkəran tabii vilayətində zirehli koramalın helmint faunasını öyranməyə başlamışıq.

A.A.Əliyev, H.K.Həsənovun (1972) məlumatına qörə Lənkəran tabii vilayətinin bitki örtüyü şərqdən qərbə, şimaldan cənuba meridional istiqamətdə dəyişir. Belə ki, şərqdən qərbə və cənubdan şimala yüksəklik dəyişdikcə, mezofil bitki qruplarının istilik sevən bitkilərlə, nisbətən kserofit qrupların isə az istilik sevən bitkilərlə əvəz olunması aydın nazərə çarpır və bu müxtəlif xarakterli landşaft tiplərinin formalaşınasına səbəb olur.

MATERİAL VƏ METODLAR

Helmintoloji materıallar hündürlük qurşaqları üzrə müxtəlif zarakterli landşaftlardan toplanmışdır. Bu məqsədlə Lənkəran təbii vilayətində düzənlik gurşağa (-27-200 m) daxil olan guru-bozqır və yarımsəhra landşaftda 22 fərd, bu qurşağa daxil olan mülayim rütubətli subtropik landşaftda 29 fərd, dağətəyi qurşagda (200-500,700 m) rütubətli subtropik landşaftda 31 fərd, orta dağlıq qurşagda (700-1600, 2000 m) mülayim isti enliyarpaqlı dağ-meşə landşaftında isə 54 zirehli koramal olmaqla cəmi 136 zirehli koramal tam helmintoloji yarma üsulu ilə tədqiq edimişdir (Скрябин, 1928).

Aşkar edilmiş helmintlərdən trematod və sestodlar 70%-li spirtdə, nematodlar isə 4%-li fomalində fiksə edilmişdir.

Trematod və sestodların təyin edilməsində zəyli karmindən boyayıcı maddə hazırlanmış və helmintlər rənglənmişdir. Helmintlər ardıcıl spirt cərgəsindən (60, 70, 80, 90, 96^0) keçirildikdən sonra üzərinə kanada balzamı əlavə edərək daimi preparatlar hazırlanmışdır.

Nematodlar isə 4%-li formalindən çıxarılaraq, distillə edilmiş suda yuyulur və əşya şüşəsi üzərinə keçirilir. Nematodun üzərinə qliserin və süd turşusu qarışığından hazırlanmış məhluldan damcılar əlavə edib, örtücü şüşə ilə örtərək mikroskop altında növ tərkibi təyin edilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Tədqiqat nəticəsində koramallardan 3 sinfə daxil olan 13 növ helmint aşkar edilmişdir. Bu helmintlərin 3 növü trematod, 3 növü sestod, 7 növü isə nematodlar sinfiə aiddir.

Sinif Trematoda

Dəstə Fasciolida Skrjabin et Quschanskaja, 1962

Fəsilə Pleurogenoidae Looss, 1899

Cins Pleurogenoides Travassos, 1921

Növ Pleurogenoides medians (Olsson, 1876)

Növ mülayim rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 4-dən (13,8 %) 2-6 fərd miqdarında tapılmışdır.

Fəsilə Telorchidae Looss, 1898

Cins Telorchis Lühe, 1809

Növ Telorchis assulla (Dujardin, 1845)

Tədqiqat zamam bu növ quru-bozqır və yarımsəhra landşaftında (çay, göl və bataqlıq sahilləri) tədqiq edilmiş 22 zirehli koramaldan 2-dən (9.0%) 3-5 fərd, mülayim rütubətli subtropik landşaftda 29 zirehli koramaldan 7-də (24,1%) 1-5 fərd miqdarında tapılmışdır.

Fəsilə Plagiorchidae Lühe, 1901

Cins Opisthioglyphe Looss, 1899

Növ Opisthioglyphe ranae (Froeiiclı. 1791)

Bu sorucu quru-bozqır va yarımsəhra (çay, göl va bataqlıq sahilləri) tədqiq edihniş 22 zirehli koramaldan 3-dən (13,6%) 2-5 fərd və mülayim-rütubətli subtropik landşaftda isə 29 zirehli koramaldan 3-dən (10.3%) 3-9 fərd miqdarında tapılmtşdır.

Sinif Cestoda

Dəstə Cyclophillidea Beneden in Braun, 1900

Fəsilə Linstowiidae Mola, 1929

Cins Oochoristica Lühe, 1898

Növ Oochoristica tuberculata (Rud., 1819)

Helmintoloji tədqiqat zamanı bu növ quru-bozqır və yarımsəhra landşaftında tədqiq edilmiş 22 zirehli koramaldan 3-dən (13.6%) 1-2 fərd, mülayim-rütubətli subtropik landşaftda 29 zirehli koramaldan 3-dən (10,3%) 1-3 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında tədqiq edilmiş 54 zirehli koramaldan 2-dən (3,7%) 3-8 fərd miqdarında aşkar edilmişdir.

Fəsilə Dipylidiidae Mola, 1929

Cins Joyeuxiella Furmann, 1935

Növ Joyeuxiella echinorhinchoides (Sonsino, 1889) larvae

Sestodların bu növü mülayim-rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 6-da (20,7%) 1-2 fərd, quru-bozqır və yarımsəhra landşaftında (çay, göl va bataqlıq sahilləri) 22 zirehli koramaldan 1 - dən (4,5%) 1fərd, rütubətli subtropik landşaftda 31 zirehli koramaldan 3-də (9,7%) 1-2 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında isə 54 zirehli koramaldan 4-də (7,4%) 1-4 fərd miqdarında yoluxma müəyyən edilmişdir.

Fəsilə Mesocestoides Poirier. 1897

Cins Mesocestoides Vaillant, 1863

Növ Mesocestoides lineatus (Qoeze, 1782) larvae

Bu növ sürfə mərhələsində rütubətli subtropik landşaftda tədqiq edilmiş 31 zirehli koramaldan 2-dən (6,4%) bağırsaq divarının üzərindən 1 sürfə və qida borusunun üzərindən 2 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında tədqiq edilmiş 54 zirehli koramaldan 3-dən (5.5%) 7-12 fərd miqdarında aşkar edilmişdir.

Sinif Nematoda

Dəstə Rhabditida Oerley, 1880

qəsila Rhabdiasidae Railliet, 1915

Cins Puraentomelas Gen., nov

Növ Paraentomelas dujardini (Mauras, 1916)

Bu növ mülayim -rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 5-də (17,2%) 3-21 fərd, rütubətli subtropik landşaftda 31-dən 3-də (9.7%) və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında tədqiq edilmiş 54 zirehli koramaldan 3-də (5,5%) 3-17 fərd miqdarında tapılmışdır.

Cins Hesadontophorus Kreis, 1940

Növ Hesadontophorus ophisauri Kreis, 1940

Tədqiqat zamanı bu növ quru-bozqır və yarımsəhra landşaftda tədqiq edilmiş 22 zirehli koramaldan 3-də (13,6%) 2-5 fərd, mülayim-rütubətli subtropik landşaftda 29 zirehli koramaldan 4-də (13,8%) 2-11 fərd, rütubətli subtropik landşaftda tədqiq edilmiş 31 zirehli koramaldan 6-da (31.0%) və mülayim isti enliyarpaq dağ-meşə landşaftında 54 zirehli koramaldan 2-də (3,7%) 4-7 fərd miqdarında qeyd edilmişdir.

Dəstə Strongylida Diesinq, 1851

Fəsilə Trichostrongylida Leiper, 1908

Cins Oswaldocruzia Travassos, 1917

Növ Oswaldocruzia qoezei Skrjabin et Schulz, 1952

Bu növ mülayim-rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 5-də (17,2%) 3-17 fərd, rütubətli subtropik landşaftda tədqiq edilmiş 31 zirehli koramaldan 3-də 2-14 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında isə 54-dən 1-də (1,8%) 5 fərd miqdarında qeydə alınmışdır.

Dəstə Spirurida Diesinq, 1861

Fəsilə Spiruridae Oerley, 1885

Cins Ascorops Beneden, 1873

Növ Ascorops stronqlina (Rudolphi, 1819) larvae

Azərbaycanda sürfə mərhələsində ilk dəfə bizim tərəfimizdən mülayim-rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 1-dən (3,,4%) qida borusunun və udlağın üzərindən 1-3 fərd miqdarında tapılmışdır.

Cins Physacephalus Diesing, 1861

Növ Physacephalus sexalatus (Melia, 1860)

Tədqiqat zamanı Lənkəran təbii vilayətinin quru-bozqır və yarımsəhra landşaftında tədqiq edilmiş 22 zirehli koramaldan 2-dən (9,0%) 1-5 fərd, mülayim rütubətli subtropik landşaftda 29 zirehli koramaldan 3-dən (10,3%) 2-8 fərd, rütubətli subtropik landşaftda 31 zirehli koramaldan 3-də (9.7%) 2-11 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında isə 54 zirehli koramaldan 6-da (11,1%) 3-12 fərd miqdarında tapılmışdır.

Cins Spirocerca Railliet et Henry, 1911

Növ Spirocerca lupi (Rudolphi, 1819) larvae

Növ guru-bozqır və yarımsəhra (şay, göl və batabataqlıqların sahilləri) landşaftında tədqiq edilmiş 22 zirehli koramaldan 3-dən (13,6%) 1-2 fərd, mülayim-rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 6-da (20,7%) 1-4 fərd, rütubətli subtropik landşaftda 31 zirehli koramaldan 4-də (12,9%) 2-8 fərd və mülayim-isti enliyarpaq dağ-meşə landşaftında isə 54-dən 5-də (9,2%) 2-5 fərd miqdarında aşkar edilmişdir.

Fəsilə Physalopteridae Railliet, 1803

Cins Physaloptera Rudolphi, 1819

Növ Physaloptera sp. Iarvae

Tədqiqat zamanı mülayim-rütubətli subtropik landşaftda tədqiq edilmiş 29 zirehli koramaldan 1-nin nazik bağırsağının üzərindən 1 fərd Physaloptera cinsinə aid nematod tapılmışdır. Qeyd olunan nematod sürfə mərhələsində olduğu üçün onu növə gədər təyin etmək mümkün olmamışdır.

Qeyd olunan 3 növ trematod yalnız düzənlik gurşaqda yayılmışdır. Düzənlik qurşağa daxil olan landşaftların hər birində 2 növ, dağətəyi və orta dağlıg qurşaglara daxil olan landşaftların hər birində isə 3 növ sestod yayılmışdır.

Ən çox nematod növü (7 növ) mülayim-rütubətli subtropik landşaftda, nisbətən az isə rütubətli subtropik, mülayim-isti enliyarpaq dağ-meşə (hər birində 5 növ) və guru-bozgır və yarımsəhra (3 növ) landşaftlarında yayılmışdır.

Zirehli koramalın helmintlərinin hündürlük gurşagları üzrə müxtəlif xarakterli landşaftlarda yayılmasının təhlili göstərir ki, düzənlik gurşagda mülayim-rütubətli subtropik landşaftda 12 növ helmint yayılmaqla digər landşaftlar üzərində dominantlıq təşkil edir. Digər landşaftlardan düzənlik gurşağa daxil olan guru-bozgır və yarımsəhra landşaftında 7 növ, rütubətli subtropik landşaftda və mülayim isti enliyarpaq dağ-meşə landşaftında isə hər birində 8 növ helmint aşkar edilmişdir.

Helmint növlərinin bu cür yayılması bir tərəfdən növlərin inkişafı üçün əlverişli olan abiotik amilliərin təsiri altında baş verirsə, digər tərəfdən də aralıq və axırıncı sahiblərin landşaftlar üzrə yayılma dərəcəsindən, gida bolluğundan, sıxlığından və digər biotik amillərin təsirindən asılıdır.

ƏDƏBİYYAT

Əliyev A.Ə., Həsənov H.K. (1972) Talışın landşaftı. Bakı. Elm: 99.

Скрябин К.И. (1928) Методы полных гельминтологических вскрытий позвоночных, включая человека. Москва, МГУ: 45.

Шарпило В.П. (1976) Паразитические черви пресмыкающихся фауны СССР, Киев, «Наукова думка»: 286.

Фарзалиев А.М. (1974) К изучению trематодофауны амфибий и рептилий Малого Кавказа \\ Уч. зап. АГУ им С.М.Кирова, сер.биол.наук, 1: 66 - 72.

Фарзалиев А.М. (1977) Гельминтофауна амфибий и рептилий Малого Кавказа Азербайджанской ССР \\ В сб. Исследования по гельминтологии в Азербайджагне. Баку, Элм: 98-99.

S.M. Musayeva

Helminto Fauna of *Pseudopus apodus* Pall. and Its Landscape-Ecological Analyses in Lenkoran Zone

The paper devoted to studying of the helminto fauna of *Pseudopodus apodus*. Researches were conducted in the different landscapes from the different heights above sea level. Totally 136 specimen of the *P.apodus* vere investigated and 13 species of helmints belonging to 3 classes, 5 orders, 10 families and 13 genera were found. In the lowland belts (-27-200 m a.s.l.) there were recorded 12 species of helmints in the landscapes mith temperate damp subtropical climate, 7 species were recorded in the dry semi desert landscape. In the submountain belts (200-500, 700 m a.s.l.) including damp subtropical landscapes and in the middle mountain belt (700-1600, 2000 m a.s.l.) including deciduous mountain forests with temperate hot climate there were recorded 8 species of helmints.

С.М. Мусаева

Гельминтофауна *Pseudopus apodus* Pall. и ее Ландшафтно-Экологический Анализ в Ленкоранской Зоне

Статья посвящена изучению гельминтофауны *Pseudopodus apodus*. Исследования были проведены в различных ландшафтных местностях на различных высотах над уровнем моря. Было исследовано всего 136 образцов *P.apodus*, а также было обнаружено 13 видов гельминтов, принадлежащих к 3 классам, 5 порядкам, 10 семействам и 13 родам. В низменных поясах (-27-200 м над ур. моря) было зарегистрировано 12 видов гельминтов в местностях с умеренным влажным субтропическим климатом, 7 видов были зарегистрированы в сухой полупустынной местности. В предгорных поясах (200-500, 700 м над ур. моря), включая влажную субтропическую местность, и средний горный пояс (700-1600, 2000 м над ур. моря), включая лиственные горные леса с умеренным жарким климатом было зарегистрировано 8 видов гельминтов.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 47-51(2009)

Meriones Cinsinə Daxil Olan Qum Siçanlarının (İran, Vinoqradov, Qırmızıquyruq Qum Siçalarının) Xromosom Homologiyası (*Rodentia, Gerbilinae*)

Q.N. Quliyev
AMEA Zoologiya İnstitutu, QSP məhəllə 504, keçid 1128, Bakı ş. AZE 1073, e-mail: qiyas_q@mail.ru

GİRİŞ

Meriones cinsinə daxil olan *M.persicus* Blanford, 1875 (2n=42; NF=78), *M.Vinogrodovi* Heptner, 1931 (2n=44; NF=78), *M.libycus* Lichtenstein, 1823 (= erythrourus Gray, 1842) (2n=44; NF=86) kariotipləri adi, G- və C-rəng metodları öyrənilmiş və müqayisə edilmişdir. G-rəngləmə metodu ilə bu növlərin kariotipində əksəriyyət xromosom cütləri homoloqdur və təkamüldə Tandem translokasiyaları müəyən edilir. Olsun ki, bu növlərin əcdadı daha yüksək xromosoma malik olmuşdur. C-metodunun tətbiqi ilə *M.libucus* növündə populyasiya arası polimorfizm aşkar edilmişdir.

İran qum siçanının (*Meriones persicus* Blanford,1875) kariotipi ilk dəfə R.Mattey (Matthey, 1957) tərəfindən öyrənilmiş və diploid xromosom sayı (2n=42) müəyyən olunmuşdur. Sonradan onun çiyinlərinin əsas sayı (NF=74) dəqiqləşdirilmişdir (Nadler and Lay 1967). N.N.Vorontsov və K.V. Korobitsina (Воронцов и Коробицина, 1970), Q.N.Quliyev (Кулиев, 2003) tərəfindən 2n=42, NF=78 müəyyən olunmuşdur.

Vinoqradov qum siçanının (*M.vinoqradovi* Heptner, 1931) kariotipi R.Mattey (Matthey, 1957), N.N.Vorontsov, K.V.Korobitsina (Воронцов и Коробицина, 1970), V.N.Orlov (Орлов, 1969), Q.N.Quliyev (Кулиев, 2003) tərəfindən öyrənilmiş və onun diploid xromosom sayı (2n=44), xromosomların çiyinlərinin sayı (NF=78) müəyyən olunmuşdur.

Qırmızıquyruq qum siçanının kariotipi R. Mattey (Matthey, 1954) tərəfindən tədqiq edilmiş və onun diploid xromosom sayı 2n=44, çiyinlərinin əsas sayı NF=74 müəyyən olunmuşdur. N.N.Vorontsov və K.V.Korobitsina (Воронцов и Коробицина, 1970) çiyinlərin əsas sayını NF=72 göstərmişlər. N.Q.Şubina və N.P.Xmelnitskiyə (Шубина и Хмельницкая, 1975) görə 2n=44 və 40, Q.N.Quliyevə görə (Кулиев, 2003) 2n=44, NF=86-dır. Qum siçanlarının müxtəlif qruplanının təkamülü ilə əlaqədar tədqiqat işləri aparılmışdır (Картавцева, 1988.).

Bu məqalədə üç növün (*Meriones persicus, M.vinoqradovi, M.erythrourus*) adi və differensial rənglənmə metodlanının tətbiqi nəticəsində xromosom homologiyası və təkamülünü müəyyən etməkdən ibarətdir.

MATERİAL VƏ METODLAR


Göstərilən üç növ üzrə material 1990-2007-ci illərdə AMEA Zoologiya institutu tərəfindın təşkil edilmiş ekspedisiya zamanı toplanmışdır. İran qum siçanı üzrə material 5 fərd (1♀♀,4♂♂), Lerik rayonu ərazisindən, Vinoqradov qum siçanı üzrə material 7 fərd (4♀♀, 3♂♂) Naxçıvan MR Culfa şəhəri ətrafından, qırmızıquyruq qum siçanı üzrə material Abşeron yarımadasından 10 fərd (5 ♀♀, 5♂♂), Ceyrançöl ərazisindən 2 fərd (1♀♀, 1♂♂), Qobustan ərazisindən 9 (4♀♀, 5♂♂) fərd toplanmışdır.

Metafaza lövhələri preparatları almaq üçün C.E.Ford və J.L.Hamerton (Ford and Hamerton, 1956), G-rəngləmə S.I.Rəcəbli və E.P.Kryukova (Раджабли и Крюкова, 1973) metodu tətbiq edilmişdir. Heteroxromatin strukturunu və paylanmasını analiz etmək üçün C-rəng metodundan istifadə edilmişdir (Summer, 1972).

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI

İran qum siçanının (*M.persicus* Blanford, 1875) kariotipi

Bu növün kariotipində xromosom sayı 2n=42. Xromosom çiyinlərinin əsas sayı NF=78. Kariotipdə autosom xromosomlarından 17 cüt meta və submetasentrik və 3 cüt akrosentrik müəyyən olunur.




Şəkil 1. İran qum siçanı. Adi rəngləmə

X-xromosom ölçüsünə görə iri olub kariotipdə 2-ci cüt xromosoma uyğundur, forması submetasentrikdir.

Y-xromosom ikiçiyinli xromosomlar içərisində kiçikdir, forması metasentrikdir (Şək.1).

G-rəngləmə metodunun tətbiqi nəticəsində xromosom cütlərinin hamısı identifikasiya olunmuşdur (Şək.2).




Şəkil 2. İran qum siçanı. G rəngləmə

Vinoqradov qum siçarının sayı (*Meriones vinoqradovi* Heptner, 1931) kariotipi

Vinoqradov qum siçanının kariotipində 2n=44, NF=78-dir. Kariotipdə autosom xromosomlardan 16 cutu meta və submetasentrik, 5 cütü akrosentrikdir.


X-xromosom submetasentrik olub ölçusunə görə 1-ci cüt xromosoma uyğundur.

Y-xromosom ölçüsünə görə kiçik xromosomlardan biridir, forması submetasentrikdir (Şək.3).



Şəkil 3. Vinaqradov qum suçanı. Adi rəngləmə


G-rəngləmə metodu ilə xromosomların hamısı identifikasiya edilir (Şək.4).



Şəkil 4. Vinaqradov qum siçanı. G rəngləmə

Qırmızıquyruq qum siçanının (*Meriones libycus lichtenstein* 1823=*erythrourus* Gray,1842) kariotipi

Qırmızıquyruq qum siçanının kariotipində 2n=42, NF=86 kariotipdə autosom xromosomlardan 8 cütü metasentrik, 7 cütü submetasentrik, 5 cütü subtelosentrik, 1 cütü isə akrosentrikdir.



Şəkil 5. Qırmızıquyruq qum siçanı. Adi rəngləmə

X-xromosom akrosentrik formaya malik olub, ölçüsünə görə kariotipdə ən iri xromosomlardan biridir.

Y-xromosom submetasentrik formaya malikdir (Şək.5).


G-rəng metodu vasitəsilə xromosom cütlərinin hamısı bir-birindən fərqlənir (Şək.6).

C-metodu ilə Ceyrançöl, Abşeron və Qobustan ərazisindən tutulmuş heyvanlarda heteroxromatin strukturu və paylanması müəyyən edilmişdir. Şəkil 7-də yalnız Ceyrançöl fərdlərinin kariotipi verilmişdir.


Adi rəngləmə metodu ilə tədqiq edilmiş üç növün kariotiplərinin müqayisəsi 2-ci cədvəldə verilmişdir.

Göstərilən üç növün İran qum siçanı, Vinaqradov qum siçanı, qırmızıquyruq qum

siçanları kariotip göstəricilərinə (adi rənglənmə) görə bir-birindən müəyyən dərəcədə fərqlənir. İran qum siçanının xromosom sayı digər iki növdən nisbətən az olması ilə fərqlənir (2n=42). Qalan iki növdə xromosom sayı 2n=44-dir. Autosom xromosomlarından metasentriklərin sayı hər üç növdə eyni olub 8-cütdür. Submetasentriklərin sayı Vinoqradov qum siçanlarında 7 cüt, qalan iki növdə isə 9-cütdür. Subtelosentrik xromosomlar yalnız qırmrzıquyruq qum siçanlarında müəyyən olunur. Akrosentrik xromosomlanın sayı müxtəlif olub İran qum siçanında 3 cüt, Vinoqradov qum siçanında 5 cüt, Qırmızıquyruq qum siçanında 1 cütdür.



Şəkil 6. Qırmızıquyruq qum siçanı. G rəngləmə



Şəkil 7. Qırmızıquyruq qum siçanı. Ceyrançöl. C rəng

X-xromosom yalnız qırmızıquyruq qum siçanında akrosentrik formaya malikdir. Qalan iki növdə isə submetasentrikdir.

Qırmızıquyruq qum siçanı üçün G-rəng ilə aldıgımız nəticələr ədəbiyyat məlumatları ilə müqayisə edilmişdir (Коробицына и Каргавцева, 1992). Əksər xromosom cütləri zolaqlarına görə oxşardır. Lakin bununla yanaşı fərqlər də istisna olmamışdır. İkinci cüt xromosomların çiyinləri uyğun olsa da, aşağı çiyinlər nisbətən fərqlidir. 4-cü cüt xromosomlarda kiçik fərqlər müşahidə olunur. 13-cü və 14-cü cüt xromosomların hər bir homoloyunda zolaqlar bir-birinə tam uyğundur. 13 və 14-cü cüt xromosomlarda heteromorfluq qeydə alınmır.

Bundan əlavə G-rəng metodu ilə İran qum siçanının və qırmızıquyruq qum siçanlarının kariotipləri müqayisə edilmişdir. Göstərilən iki növün kariotipində əksəriyyət xromosom cütləri xromosomda olan zolaqlara görə oxşardır. Lakin fərqlər də mövcuddur. Qırmızıquyruq qum siçanının 3-cü cüt xromosomunun üst çiynində zolaqlanın sayı daha çoxdur. Bu onu göstərir ki, 3-cü cüt xromosomlar əcdad növün müxtəlif xromosom cütlərinin birləşməsindən əmələ gəlmişdir. Qeyd etmək lazımdır ki, qırmızıquyruq qum siçanının bir fərdində 3-cü və 21-ci cüt xromosomlar arasında tandem translokasiyanın baş verdiyi aşkar olunmuşdur (Şək.6). 7-ci cüt xromosomlarda da uyğun dəyişikliklər müşahidə olunur. Kiçik autosom xromosomlarının oxşarlığını müəyyən etmək mümkün olmamışdır.

İran qum siçanında 12-ci cüt xromosom olsunki, qırmızıquyruq qum siçanında 11-ci cütün aşağı hissəsi ilə və 13-cü cüt xromosomların tandem translokasiyası nəticəsində əmələ gəlmişdir. Qırmızıquyruq qumm siçanında 11-ci cüt xromosomun yuxarı hissəsi başqa xromosom birləşməsi ilə əmələ gəlmişdir. Bundan başqa İran qum siçanında X-xromosom submetasentrik, qırmızıquyruq qum siçanında isə akrosentrikdir. Bu xromosomlarda zolaqların uyğun gəlməsi göstərir ki, X-xromosomlarının əmələ gəlməsi tandem translokasiyasının nəticəsidir.

Differensial rənglənmə (G-rəng) əsasında növarası müqayisə göstərdi ki, bu növlərin əcdadlarının kariotipində müasir növləri kariotipinə nisbətən daha çox birçiyinli xromosomlar olmuşdur. Deməli, bu növlər daha yüksək saylı xromosoma malik əcdadlardan əmələ gəlmişdir.

Qırmızıquyruq qum siçanının heteroxromatin tərkibi Abşeron, Qobustan və Ceyrançöl populyasiyalarından əldə edilmiş fərdlər üzərində öyrənilmişdir. Qırmızıquyruq qum siçanlarının Ceyrançöl populyasiyasının 1-ci qrupunu təşkil edən xromosomlarında Qobustan və Abşeron populyasiyasından fərqli olaraq interkalyar heteroxromatin aşkar olunmur. Heteroxromatin yalnız bu qrup xromosomların sentromer hissəsində bloklar şəklində aydın nəzərə çarpır.

Ceyrançöl populyasiyasının kariotipinin 2-ci xromosomlarının 4, 6 cütlərində (Ümumi kariotipdə isə 12 və 14-ci cüt xromosomlar) Qobustan populyasiya fərdlərinin kariotipində olan uyğun xromosom cütlərinin heteroxromatin tərkibinə oxşardır. Lakin Qobustan və Ceyrançöl populyasiyaları bu xromosomların heteroxromatin tərkibinə görə digər populyasiya, yəni Abşeron populyasiyasından fərqlənir.

13-cü cüt xromosom hər üç populyasiya üçün xarakterik olan heteroxromatin cizgilərinə malikdir, yəni heteromorfdur. 13-cü cüt xromosomun homoloqlarından biri həm sentromer blokuna, həm üst qısa çiyinin telomer və həm də uzun çiyinin sentromerinə yaxın olan hissəsində iri və enli heteroxromatin blokuna malikdir. 13-cü cüt xromosomun homoloqlarından digəri isə yalnız sentromer və üst çiyinin telomer hissəsində olan heteroxromatinə görə birinci homoloji xromosoma uyğundur. Uzun alt çiyin isə heteroxromatinə malik deyil. Beləliklə, Qobustan və Ceyrançöl populyasiyaları heteroxromatin tərkibinə görə bir-birinə daha yaxındır. Abşeron populyasiyası isə bunlardan nisbətən uzaqdır.

Qeyd etmək lazımdır ki, heteroxromatin strukturu Y.K.Eyqelisin (Эйгелис, 1980) göstərdiyi populyasiya bölgülərini təsdiq edir.

ƏDƏBİYYAT

Воронцов Н.Н., Коробицина К.В. (1970) Материалы по сравнительной кариологии песчанок. Цитология **XII(2):** 152-157.

Картавцева И.В. (1988) Изменчивость эвалюции кариотипа песчанок (*Rodentia, Gerbillinae*). Владивосток. Автореферат. Канд. биол. наук: 17 с.

Коробицына К.В., Каргавцева И.В. (1992) Изменчивость эвалюции кариотипа песчанок (*Rodentia, Cricetidae, Gerbillinae*) Зоол.журнал **71(3):** 83-93.

Кулиев Г.Н. (2003) Кариотипы некоторых видов песчанок рода Meriones (*Rodentia, Gerbillinae*). Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (Biol. elm seriyası) **1-2:** 127-131.

Орлов В.Н. (1969) Хромосомные наборы песчанок Армении – В кн.: Млекопитающие (эволюция, кариология, систематика, фаунистика). Новосибирск: 121-123.

Hər bir becərilən üzüm sortunun genetik potensialı 60-80 ildən sonra tədricən tükəndiyindən təkamül prosesində vegetativ çoxaldılma nəticəsində onlarda spontan mikro və makro mutasiyalar meydana çıxır. Xalq seleksiyasında isə belə dəyişkən variasiyalardan qiymətli klon-sortlar yaradılmışdır. Hazırda dünyada 3 mindən artıq ayrı-ayrı üzüm sortlarından məhsuldarlığı 1,5-2,0 dəfə yüksək olan, iqtisadi və seleksiya əhəmiyyətli yeni, əsasən diploid (2n=38), az sayda isə tetraploid (2n=76) genoma malik olan klonlar qeydə alınmışdır (Трошин и Животовский, 1987). İndiki dövrdə üzüm becərilən bir sıra ölkələrdə, yüksək məhsuldar, iri salxım və giləli, şəkərliliyi yüksək olan, müxtəlif vaxtlarda yetişən yeni klon-sortların əldə olunması istiqamətində məqsədyönlü seleksiya işləri aparılır və kifayət qədər müsbət nəticələr əldə olunmuşdur (Голодрига и др., 1976; Amanov və b., 2005; Трошин, Хлейный и др., 2005).

Klon seleksiyası əsasən iki istiqamətdə aparılır: kütləvi və fərdi klon seleksiyası. Kütləvi klon seleksiyası ümumi qəbul edilən (1971) və sonradan təkmilləşdirilən metodikalar üzrə yerinə yetirilir (Простоседов, 1946; Лазаревски, 1963; Макаров, 1964). Onu da qeyd etmək lazımdır ki, kütləvi klon seleksiyası üzrə mövcud metodikalar üzrə seçmə işləri əsasən sənaye miqyasında becərilən, sort qarışığı çox az olan üzüm plantasiyalarında aparılması üçün nəzərdə tutulmuşdur. Bu metodikalarla müxtəlif sortlardan seçmə nəticəsində əldə edilən müvafiq mikro mutasiyaya uğramış klonlar genotipcə daha az, fenotipcə isə daha çox oxşar olmaları ilə səciyyələnməklə, bir hissəsi praktikada özünü doğrultmamışdır.

Üzüm bitkisi vegetativ yolla çoxaldığından, Naxçıvan Muxtar Respublika ərazisində xalq seleksiyası gedişində 150-yə qədər sortmüxtəlifliyi genofondunda daha məhsuldar, iri salxım və giləli, şəkərliliyi yüksək, tez yetişən və s. genetik əlamətlərə malik olan tənəklərdən əkin materialları götürülərək artırılmış, hazırda ayrı-ayrı sortların çoxlu sayda mutant variasiyaları, sorttipləri, sortqrupları, klon-sortları yaradılmışdır. Belə nadir klon-sortların seçilməsi, yeni fenotipik homogen təbiətli klonların əldə olunması aparılan işin əsas məqsədini təşkil etmişdir.

MATERİAL VƏ METODLAR

Tədqiqat dövründə Naxçıvan Muxtar Respublikası ərazisindəki üzüm plantasiyalarında, köhnə bağlarda, şəxsi həyətyanı sahələrdə və Bioresurslar institunun «üzüm genofondu» kolleksiya bağındakı tənəklər üzərində seçmə işləri aparılmış, sortlar üzrə yeni, əsasən makromutasiyaya uğrayan klon-sortlar müəyyənləşdirilmiş və ampeloqrafiq tədqiqatlar aparılmışdır. Yeni klonların seçilməsində ümumi qəbul edilmlş metodikalardan istifadə olunmuşdur (Лазаревски, 1963; Голодрига, 1975; Журавль, 1977). İşin gedişində fərdi klon seleksiyası mövcud olan metodikalar üzrə deyil, bir qədər dəyişdirilmiş formada aşağıdakı üsulla yerinə yetirilmişdir:

Birinci mərhələdə ayrı-ayrı sortlar üzrə vizual müşahidə yolu ilə morfoloji dəyişkən (tənəyin inkişafında, yarpaqların morfoloji əlamətlərində, salxım və gilələrin parametrlərində, məhsulun yetişmə müddətlərində, tozlanmanın fizioloji xüsusiyyətlərində, xəstəlik və ziyanvericilərə, şaxtalara, quraqlığa qarşı dözümlü olmalarında, məhsulun kəmiyyət və keyfiyyətində, əmtəə görünüşündə, saxlanmasında, alınan müxtəlif məhsulların biokimyəvi tərkibində və s.) kollar, yaxud tənəklərdəki dəyişkən zoğlar seçilərək nəzarət altına alınmış və üç il müddətində üzərlərində fenoloji müşahidə işləri aparılaraq

onların başlanğıc sortlarla müqaisəli şəkildə biomorfoloji, aqrobioloji xüsusiyyətləri araşdırılmışdır. Dəyişkənliyə uğramış zoğlar isə növbəti il kəsilərək artırılmış, məhsula düşdükdən sonra öyrənilmişdir.

İkinci mərhələdə başlanğıc sortlardan bəzi irsi əlamətlərinə görə spontan mutasiyaya uğrayan və seleksiya əhəmiyyətli, ayrı-ayrı sortlar üzrə protoklonlar seçilmiş, onların içərisindən isə ən perspektivli bir tənəkdən əkin materialları hazırlanmışdır. Bu klonların hər birindən ən azı 10 kol olmaqla nəzarət sortla birlikdə artırılaraq əkilmişdir. Məhsula düşdükdən sonra üç il müddətində mütəmadi olaraq eyni torpaq-iqlim və aqrotexniki qulluq şəraitində ampeloqrafiq və biometrik qiymətləndirmə aparılaraq perspektivli yeni klonlar seçilmişdir.

Üçüncü mərhələdə isə seçilmiş yeni klonlar başlanğıc sortlarla birlikdə dövlət sort sınağı komissiyasına təqdim etmək üçün hazırlanır.

Yeni klonların aqrobioloji xüsusiyyətləri müvafiq metodikalar əsasında yerinə yetirilmişdir (Голодрига и др., 1976; Scholling, 1984; Трошин, 2001; Трошин и Звягин, 2005).

Tədqiqat işləri 1985-2005-ci illər ərzində yerinə yetirilmişdir. Yeni klonların başlanğıc sortlarla müqaisədə spontan mutasiya əlamətlərini müəyyən etmək məqsədilə üzərlərində ardıcıl fenoloji müşahidələr aparılmış, əsas aqrobioloji və məhsuldarlıq xüsusiyyətləri tədqiq edilmişdir. Fenoloji müşahidə dövrü tumurcuqların açılma müddəti, çiçəkləmənin gedişi, məhsulun yetişmə müddətləri, ümümi vegetasiya dövrü müəyyənləşdirilmiş, klonlarda bu kimi irsi əlamətlərin eyni ekoloji mühit şəraitində fərqlənmələri qeydə alınmışdır. Tumurcuqların açılması aprel ayının birinci yarısında başlanmışdır. Klonlarda tumurcuqların kütləvi açılışı əksəriyyətində başlanğıc sortlardan 2-6 ğün tez baş vermişdir. Bəzi klonlarda isə bu göstərici 2-3 gün gecikmişdir. Çiçəkləmənin gedişində də klonlarla başlanğıc sortlar arasında fərqlər 3-5 gün tez və 2-6 gün gec olsa da əsas fərq məhsulun tam fizioloji yetişməsində müşahidə edilmişdir. Məhsulun tez yetişmə əlamətinə görə klonlardan K.88/1 - 18 gün, K.88/2 - 19 gün, K.85/1 - 25 gün başlanğıc sortlardan tez, K.98/2 - 11 gün, K.97/2 - 16 gün gec fizioloji yetişkənliyə çatmışdır. Əsas aqrobioloji göstəricilərin nəticələrinə görə secmə işində salxım və gilələrinin iri,şirədə şəkərliliyinə görə başlanğıc sortlardan yüksək olan klonlar saxlanılmışdır (Cədvəl 1). Hətta Sarı kişmişidən tam yetişmə dövrü şəkərliliyi 26.0% -dən çox olan K.88/1 klonu əldə olunmuşdur. Qırmızı kişmişi və Sarı kişmişi sortundan əldə olunan K.91/4 və K.92/3 klonları iri salxımları və xoşagəlim əmtəə görünüşü ilə diqqəti cəlb edir (Şək.1, 2).



Şəkil 1. Yeni K.91/4 klonunun salxımı.



Şəkil 2. Yeni K.92/3 klonunun salxımı.

Əsas məhsuldarlıq göstəricilərinə görə irsi əlamətlər arasında asılılığı tədqiq edərkən barlı zoğların miqdarı ilə tənəyin və barlı zoğların məhsuldarlıq əmsalları arasında korкelyativ əlaqə müşahidə edilmişdir (Cədvəl 2). Ən yüksək məhsudarlıq əmsalı koldan K.91/4-də (0.81), barlı zoğlardan isə K.85/1-də (1.85) olmuşdur. Bir koldan məhsuldarlığa görə bütün klonlar başlanğıc sortlardan yüksək olmuşdur. Ən çox məhsul K.95/1 klonunda - 15 kq.

Cədvəl 1. Yeni üzüm klonlarının əsas aqrobioloji göstəriciləri

Sort və onlardan seçilın klonlar	salxımın orta çəkisi, q.	salxımlarda gilələrin sayı, ədəd.	100 gilənin çəkisi, q.	gilədə, %-lə			ümumi şirə çıxımı, %	şirədə	
				qabıq	lət	toxum		şəkərliliyi, %	turşuluğu, q/l
Qırmızı kişmişi, n.	290,0	142,0	196,0	8,2	91,8	-	85,6	22,0	4,3
K. 91/3(Çəhrayi kişmişi)	325,4	240,0	125,0	8,0	92,0	-	84,7	22,0	4,0
K. 91/4	395,5	248,2	230,0	9,0	91,0	-	86,0	23,0	4,1
Mərməri, n.	280,0	155,0	90,0	6,6	93,4	-	90,1	24,0	4,1
K.89/1	355,5	341,2	98,0	6,4	93,6	-	90,0	25,5	4,0
Sarı kişmişi, n.	285,5	105,0	106,0	6,6	93,4	-	88,2	24,0	4,4
K.88/1 (Ağ kişmişi)	312,0	160,5	104,0	7,1	92,9	-	89,0	23,0	4,3
K.88/2	325,3	272,5	110,0	7,1	92,9	-	85,0	25,7	3,8
K.92/3	380,4	288,2	125,0	7,4	92,8	-	89,0	22,0	5,2
K.92/4	345,0	252,8	130,5	7,3	92,7	-	89,0	23,0	5,1
Qara kişmişi, n.	280,2	126,0	209,0	6,8	93,2	-	89,5	23,5	4,9
K.97/1	444,0	117,1	367,0	7,0	93,5	-	90,0	24,0	4,6
Hərnə qırna, n.	310,5	76,5	380,0	8,0	87,2	4,3	85,0	21,5	5,8
K.96/1(İrigilə hərnə qırna)	362,0	58,3	610,4	12,6	82,9	4,5	85,0	22,4	5,6
K .98/2	325,0	70,4	420,3	11,0	84,5	4,5	82,0	21,0	5,4
Ağ aldərə, n.	340,0	135,4	240,0	8,2	88,2	3,6	82,5	18,0	6,1
K.95/1(Sarı aldərə)	513,0	86,8	575,0	12,0	84,0	3,4	82,0	19,3	6,4
K.97/2(Irigilə aldərə)	280,0	130,0	210,2	7,1	90,1	2,8	87,0	17,5	6,8
Miskalı, n.	320,4	124,0	241,0	7,3	88,5	3,6	81,0	18,0	7,0
K.85/1	280,0	130,0	210,0	7,1	90,1	2,8	84,0	17,5	6,8
Qızıl üzüm, n.	425,9	63,2	632,1	8,0	88,0	3,0	68,0	20,8	5,4
K.98/1	495,0	70,6	665,0	8,1	87,9	4,0	70,0	19,5	5,6
Ağ xəlili, n.	280,0	127,2	212,5	4,5	94,0	1,5	82,5	16,0	7,5
K.99/1(İrigilə xəlili)	320,0	75,0	400,0	6,0	92,0	2,0	80,0	17,5	7,2
İnək əmcəyi, n.	420,0	84,0	480,0	9,7	82,0	4,5	82,8	17,5	6,5
K.99/2	551,4	97,0	555,0	11,0	82,9	6,1	78,0	17,2	6,0
Qara cəncəl, n.	270,0	110,0	340,0	6,6	89,7	3,7	82,0	17,0	5,7
K.85/1	340,0	84,6	390,0	7,0	98,3	3,7	83,0	19,0	5,0

Cədvəl 2. Klonların əsas məhsuldarlıq xüsusiyyətləri

Sort və onlardan seçilən klonlar	Inkişaf edən zoğlar		Məhsuldar zoğlar		Cicək salxımla-rının sayı, ədəd	Məhsuldarlıq əmsalı		Barlı zoğların məhsul darlıq əmsalı, q	Bir koldan məhsul darlıq, kq
	ədəd	%	ədəd	%		$Ə_1$	$Ə_2$		
Qırmızı kişmişi,n.	61,2	95,0	42,2	68,9	46,5	1,10	0,76	319,0	9,5
K. 1/3 (Çəhrayi kişmişi)	68,0	99,0	38,0	56,7	42,0	1,12	0,62	442,5	10,0
K. 91/4	71,0	89,0	48,0	67,6	38,0	1,25	0,81	493,7	12,0
Mərməri, n.	41,5	98,0	29,0	69,8	29,0	1,03	0,70	180,0	6,0
K.89/1	56,0	92,0	42,0	75,0	44,0	1,05	0,75	372,0	8,0

2 saylı cədvəlin davamı

Sarı kişmişi, n.	62,0	96,0	35,7	57,5	46,5	1,30	0,75	341,0	7,5
K.88/1 (Ağ kişmişi)	53,0	90,5	29,3	55,2	32,3	1,12	0,61	453,3	7,0
K.88/2	57,0	98,0	40,1	70,3	48,0	1,21	0,70	393,2	13,0
K.92/3	67,0	87,0	33,0	49,0	38,2	1,16	0,56	440,8	10,0
K.92/4	60,0	94,0	31,0	51,7	37,5	1,19	0,61	410,5	13,0
Qara kişmişi, n.	52,0	97,0	23,9	45,9	33,5	1,40	0,65	392,0	8,2
K.97/1	50,0	99,0	22,3	44,6	30,0	1,35	0,60	599,4	10,0
Hərnə qırna, n.	62,0	89,0	35,4	57,0	39,0	1,13	0,63	341,5	6,6
K.96/1(İrigilə hərnə qırna)	68,0	91,0	41,5	61,0	47,0	1,14	0,69	412,6	11,0
K .98/2	71,0	1000	42,4	59,7	49,2	1,12	0,69	377,0	10,0
Ağ aldərə, n.	63,0	96,0	29,7	47,1	41,6	1,43	0,75	476,0	8,5
K.95/1 (Sarı aldərə)	68,0	97,0	27,0	39,7	45,0	1,66	0,66	851,5	15,0
K.97/2 (İrigilə aldərə)	65,0	100	27,0	42,4	47,0	1,70	0,72	646,0	13,0
Miskalı, n.	65,0	95,0	28,9	44,4	52,0	1,80	0,81	576,0	12,0
K.85/1	61,0	90,0	26,0	42,6	48,0	1,85	0,78	518,0	11,0
Qızıl üzüm, n.	50,0	89,0	18,7	37,4	12,5	1,20	0,45	594,6	6,5
K.98/1	51,0	100	24,1	45,0	29,0	1,20	0,56	594,0	9,0
Ağ xəlili, n.	41,0	84,0	19,2	46,8	25,0	1,30	0,62	364,5	8,0
K.99/1 (İrigilə xəlili)	54,0	100	26,4	48,9	32,0	1,20	0,59	372,0	8,0
İnək əmcəyi, n.	68,0	89,0	25,0	36,7	28,0	1,10	0,41	462,0	7,5
K.99/2	64,0	97,0	41,0	54,0	22,0	1,20	0,60	661,0	11,0
Qara cəncəl, n.	56,7	93,0	36,8	64,9	43,2	1,20	0,65	324,0	8,0
K.85/1	64,3	97,0	37,5	58,3	45,0	1,20	0,69	384,0	12,0

Başlanğıc sortdan 6.5 kq çox məhsul olmuşdur. Ancaq, başlanğıc sortlarda olduğu kimi klonlarda da salxımların orta çəkilərində (V=18 .0 - 25.5 %) və kolun məhsuldarlığında (V=8.0 - 15.6 %) variasiya əmsalları dəyişilir.Müxtəlif sortlarda olduğu kimi ayrı-ayrı yeni klonlardan da sabit yüksək məhsul əldə olunması üçün aqrotexniki qulluq qaydasının işlənilməsi məqsədəuyğun hesab edilir. Aparılan tədqiqat işlərindən aşağıdakı *əsas nəticələr* çıxarılmışdır:

Üzümçülükdə xalq seleksiyası nəticəsində yaradılan spontan mutant variasiyalardan fərdi klon seleksiyası metodikası ilə üzüm sortlarından Qırmızı kişmişidən- 2, Mərməridən - 1, Sarı kişmişidən - 5, Qara kişmişidən - 1, Hərnə qırnadan- 2, Ağ aldərədən - 2, Miskalıdan - 1, Qızıl üzümdən - 1, Ağ xəlilidən - 1, İnək əmcəyidən - 1, Qara cəncəldən - 1 ayrı-ayrı genetik əlamətləri ilə səciyyələnən yeni klonlar əldə edilərək «Üzüm genofondu» kolleksiya bağına əlavə olunmuşdur;

Klonlarda irsi xüsusiyyətlərindən salxımların orta çəkilərində, gilələrin parametrlərində, məhsuldarlıq əmsallarında, yetişmə müddətlərində və bir koldan məhsuldarlıqda müsbət irsi əlamətlər aşkar edilmişdir;

Yeni metodika əsasında fərdi klon seleksiyası üzrə aparılan seçmə işləri nəticəsində dəyişkən oxşar variasiyalar deyil, iqtisadi əhəmiyyət kəsb edən irsi əlamətlərə malik, fenotipik homogen, eyni genetik təbiətli spontan mutant klonlar əldə olunmuşdur

ƏDƏBİYYAT

Голодрига П.Я. (1975) Современное вопросы клоновой и генетической селекции винограда. Тр. по прикладной ботанике, генетике и селекции, Л. **54(2):** 101-112.

Журавль М.С. (1977) Клоновая селекция винограда. Кишинев: Штиинца: 152 с.

Лазаревски М.А. (1963) Изучение сортов винограда. Ростов на Дону: 151 с.

Макаров С.Н. (1964) Научные основы методики опытного дела в виноградарстве. Труды МНИИВ и В, Кишинев: Гос. Изд. **9:** 278 с.

Голодрига П.Я. и др. (1976) Методические рекомендации по массовой и клоновой селекции винограда. Ялта: 31 с.

Простоседов Н.Н. (1946) Технологическая характеристика винограда и продуктов его переработки. Ампелография СССР, М.: Пишепромиздат **1:** 401-468.

Трошин Л.П. (2001) Методология клоновой селекции. Формы и методы повышения экономической эффективности регионального садоводства и виноградарства. Организация исследований и их координация. Часть 2. Виноградарство. Краснодар: 92-94.

Трошин Л.П., Животовский Л.А. (1987) Методические рекомендации по клоновой селекции винограда на продуктивность. Ялта: 36 с.

Трошин Л.П., Звягин А.С. (2005) Технология отбора лучших протоклонов винограда. Технология производства элитного посадочного материала и виноградной продукции отбора лучших протоклонов винограда. Краснодар: 75-95.

Трошин Л.П., Хлейный Д.Е. и др. (2005) Итоги изучения сортов и клонов винограда в разных зонах Краснодарского края. Технология производства элитного посадочного материала и виноградной продукции, отбора лучших протоклонов винограда. Краснодар: 96-107.

Amanov M.A., Səlimov V.S., Əliyeva G.H. (2005) Abşeron rayonu şəraitində Qara şanı üzüm sortunun klon seleksiyası. Azərbaycan aqrar elmi **3-4:** 201-203.

Scholling H. (1984) Die Klonen selektion bei Ertragrebsorten. Ingolstadt., (Nachdruch): 24 s.

В.М. Кулиев

Индивидуальная Клоновая Селекция Винограда в Генофонде Нахчыванской Автономной Республики

В ходе исследований проведенной нами индивидуальной клоновой селекции по методике, которая известна из литературы, но применена нами в немного измененном виде, в течение 1985-2007 гг. в двух этапах были избраны 18 клонов, характеризующихся спонтанными макро- и микромутациями, из 11 сортов винограда. Изучены биоморфологические и агробиологические характеристики клонов и выделены скороспелые (К.85/1), высокосахаристые (К.88/2), крупногроздные и ягодные (К.99/2), а также высокоурожайные (К.95/1) по сравнению с маточными сортами клоны. В результате с одного выделенного куста – спонтанного мутанта – были получены генетически однородные, фенотипически гомогенные, перспективные клоны с хозяйственно-ценными признаками.

V.M. Guliyev

Individual Clonal Selection of Grapes in the Genefund of Nakhchivan Autonomous Republic

During researches of the individual clonal selection carried out by us according to the method, which is known from the literature, but applied by us in a little changed form, within 1985-2007 in two stages from 11 grape varieties 18 clones, characterized by spontaneous macro-and micromutations, were chosen. Bio-morphological and agro-biological characteristics of clones are investigated, and early (K.85/1), high-sugary (K.88/2), with large bunches and berries (K.99/2), and also high-productive (K.95/1) in comparison with parental varieties clones are picked out. As a result, phenotypically and genetically homogeneous, perspective clones with economically valuable properties are obtained from one picked bush, the spontaneous mutant.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 97-101 (2009)

Naxçıvan Muxtar Respublikasının Mühüm Ornitoloji Ərazilərində Yayılmış Su-Bataqlıq Quşları

A.F. Məmmədov
AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnsitutu

Məqalədə 2004-2006-cı illər ərzində Muxtar Respublikanın ərazisində müəyyənləşdirilmiş Mühüm Ornitoloji Ərazilərində (MOƏ) aparılan tədqiqatlar nəticəsində su-bataqlıq quşlarının növləri, onların mövsü mi xarakteri, statusları, kateqoriyaları, kriteriyaları, Species of European Conservation Concern (SPEC) və mühafizə statusları haqqında geniş məlumat verilir.

GİRİŞ

Son illərdə Naxçıvan Muxtar Respublikasının ərazisində iri su anbarları, dəryaça ları yaradılmışdır. Tədricən bu su biotoplarında müxtəlif quşların qışlama, yuvalama, qidalanma yerlərinə çevrilmiş ornitokomplekslər formalaşmışdır. Bu ornitokomplekslərin ornitofaunasının növ və say tərkibində də əsaslı dəyişiliklər baş vermişdir (Talıbov və b., 2005). Bu növlərin əksəriyyəti qlobal, regional və milli mühafizə statuslarına malik quşlardır (Cədvəl 1). Bunların səmərəli mühafizəsi ilk növbədə həmin yaşayış biotoplarına olan mənfi təsirlərin müəyyənləş dirilməsini və oradakı ornitofaunanın növ, say tərkibinin öyrənilməsini tələb edir (Talıbov, 1999).

İşin əsas məqsədi Naxçıvan MR-in Mühüm Ornitoloji Ərazilərində yayılmış su-bataqlıq quşlarının növ tərkibini, təhlükə statuslarını, kateqorityalarını, kriteriyalarını və bu növlərin qarşılaşdığı təhlükələri müəyyən etməkdən ibarət olmuşdur.

MATERİAL VƏ METODLAR

Bu məqsədlə 2004-2006-ı illərdə Araz çayı, Arpaçay və onların birbaşa sahilində bizim tərəfimizdən ornitoloji tədqiqat işləri aparılmışdır. Tədqiqat işləri Naxçıvan MR-in Sədərək düzənliyindən başlamış, Ordubad rayonunun Kotam kəndi ərazisinə qədər Araz çayı sahili boyunca, Arpaçay su anbarı və çayın sahil boyu edilən marşrutlar əsasında yerinə yetrilmişdir (Mehdiyev və Novruzov, 1990; Məmmədov, 2005, 2006).

Ornitoloji müşahidələr zamanı baxış borusu, durbinin və rəqəmsal (digital) fotoaparatın köməyindən istifadə edilməklə, aşağıdakı metodlardan istifadə edilmişdir: Nisbi qeydiyyat metodu və Mütləq qeydiyyat metodu.

Növlərin təyini, adlandırılması və onlar haqqında məlumatlar müvafiq ədəbiyyatlardan istifadə edilərək verilmişdir (Tuayev, 2000; Sultanov və Məmmədov, 2004; Mustafayev və Məhərrəmova, 2005; Sultanov və b., 2005 a, b). Quşların fəallığı nəzərə alınaraq müşahidə və qeydiyyatlar səhər (8^{00}-11^{00}) və axşam (18^{00}-20^{00}) saatlarında həyata keçrilmişdir. Dumanlı və yağışli günlərdə müşahidələr quşların yem və səs fəallığının artması ilə bağlı olaraq günorta saatlarında aparıldı.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Hər bir ekosistem üçün avifaunanın formalaşmasında landşaftın relyefi, torpaq və bitki örtüyü mühüm rol oynayır. Məhz bu baxımdan MR ərazisində olan su-bataqlıq sahələrində yayılmış avifaunanın özünəməxsus növ tərkibi formalaşmışdır (Novruzov, 1982). Cədvəl 2-də verilmiş quşların spektrindən aydın olur ki, Naxçıvan MR-in ərazisində hələlik VIII dəstə, 18 fəsilə, 45 cinsə məxsus 73 növ su-bataqlıq quşları yayılmışdır. Ərazinin su-bataqlıq quşları içərisində 12-i Avropa Qorunma statusuna, 6-ı Dünya Qorunma statusuna, 8-i Azərbaycanın Qırmızı Kitabına və 4 növ isə Qırmızı Kitaba düşmə təhlükəsi altında olan növlərdir. Ərazinin quşları üçün ən böyük narahatedici amil, burada aparılan balıqçılıq işləridir. Quşlar üçün təhlükə, Muxtar Respublikanin ərazisində ovun qadağan edilməsinə baxmayaraq, yenə də qanunsuz ovçuluq hallarına rast gəlinir.

Qoruma statuslarının müəyyən edilməsi. Birds in Europe (BiE) 1-də quş növlərinin qoruma vacibliyini qiymətləndirmək və Avropadakı yayılma vəziyyətinə görə sinifləndirmək üçün bir neçə kriteri irəli sürülmüşdür (BirdLife International, 2004; Sultanov və b., 2005a). BiE2-də isə növlərin yox olma təhlükəsini qiymətləndirmək üçün İUCN Qirmizi Siyahı kriterilərini tədbiq etmənin daha uyğun olacağı düşünülmüşdür (Jonsson, 1992).

Cədvəl 1. Naxçıvan Muxtar Respublıkasının su-bataqlıq quşları

№	Növlər	SPEC 2004	Mövsümi xarakteri	ATS	AQS	DQS
					Kriteriya və kateqoriyalar	
1.	Kiçik maygülü	R	_	S	-	-
2.	Böyük maygülü	W	_	S	-	-
3.	Qaraboyun maygülü	W	_	S	-	-
4.	Çəhrayı qutan +	W	3	Ra	-	-
5.	Qıvrımlələk qutan +	W	1	Ra	-	A2c,A3c. VU
6.	Böyük qarabatdaq	P	_	S	-	-
7.	Kiçik qarabatdaq	P	1	S	-	A2,A3: NT
8.	Böyük danquşu	W	3	D	-	-
9.	Kicik danquşu	P	3	D	-	-
10.	Adi qarıldaq	B	_	D	-	-
11.	Pırtlaşıqlələk sarı vağ	B	3	Dj	-	-
12.	Misir vağcığı	B	_	S	-	-
13.	Böyük ağ vağ ++	R	-	S	-	-
14.	Kiçik ağ vağ	B	-	S	-	-
15.	Boz vağ	R	-	S	-	-
16.	Kürən vağ	B		Dc	-	-
17.	Adi ərsndimdik +	P	2	Ra	-	-
18.	Adi qaranaz ++	R	3	Dc	-	-
19.	Ağ leylək	R	2	D	-	-
20.	Adi flaminqo +	W	3	L	-	-
21.	Boz qaz	W	_	S	-	-
22.	Ağqaş qaz	P	1	EN	C1: EN	A2b,c,d,A3b,c,d: VU
23.	Harayçı qu	W	_[E]	S	-	-
24.	Qırmızı anqut (ördək)	R	3	VU	A2b: VU	-
25.	Ala anqut (ördək)	W	_	S	-	-
26.	Yaşılbaş ördək	R	_	S	-	-
27.	Fitci ördək	P	_	S	-	-
28.	Boz ördək	W	_	D	-	-
29.	Marek ördək (fıyu)	W	_[E]	S	-	-
30.	Bizquyruq ördək	W	3	Dc	-	-
31.	Cırıldayan ördək (cürə)	P	3	Dc	-	-
32.	Enlidimdik ördək	W	3	Dc	-	-
33.	Mərmər ördək +	P	1	VU	D1VU	A2cd,A3cd:VU
34.	Qırmızıbaş dalğıc	W	2	Dc	-	-
35.	Ağgöz dalğıc (qaraördək)	P	1	VU	A2VU	A2cd,A3cd: NT
36.	Adi göydimdik ++	W	1	VU	A3cVU	A2b,cd: EN
37.	Boz durna	P	2	D	-	
38.	Adi su fərəsi	W	_	S	-	-
39.	Adi porzan	P	_[E]	S	-	-
40.	Kiçik porzan	P	_[E]	S	-	-
41.	Adi çivdimdik	W	1	D	A3c NT	-
42.	Adi qamışfərəsi	W	_	S	-	-
43.	Adi qaşqaldaq	W	_	S	-	-
44.	Adi cobanaldadan ++	B	3	VU	A2 VU	-
45.	Qızılxallı qonurqanad	P	_[E]	S	-	-
46.	Yaxalı bozca	P	_[E]	S	-	-
47.	Kiçik bozca	P	_	S	-	-
48.	Cığırqan çökükburun +	B	1	EN	A2	-

1 saylı cədvəlin davamı

49.	Adi çibis (buynuzlu cüllüt)	B	2	VU	A2VU	-
50.	Adi caydaq cüllüt	B	_	S	-	-
51.	Adi bizdimdik	W	_	S	-	-
52.	Qara trınqa	R	_	S	-	-
53.	Boz trinqa (fifi)	P	3	D	-	-
54.	Otluq trinqası	B	2	Dc	-	-
55.	Adi sahildəyişən	P	3	Dc	-	-
56.	Dəyirmidimdik üzərçə	W	_	S	-	-
57.	Adi bekas	W	3	Dc	-	-
58.	Adi meşə cüllütü	P	3	Dc	-	-
59.	Böyük əyridimdik	P	2	Dc	-	-
60.	Çəmən haçaquyruğu	B	3	Dc	-	-
61.	Çöl haçaquyruğu +	P	1	EN	A2EN	-
62.	Kiçik qağayı	P			-	-
63.	Göl qağayısı	W	$_^{E}$	S	-	-
64.	Dəniz göyərçəsi	B	3	L	-	-
65.	Qarabaş güləyən qağayı	W	_	S	-	-
66.	Gümüşü qağayı	R	$_^{E}$	S	-	-
67.	Boz qağayı	P	2	D	-	-
68.	Qara sterna	P	3	D	-	-
69.	Ağqanad sterna	P	_	S	-	-
70.	Qağayıburun sterna	B	3		-	-
71.	Çay sternası	B	_	S	-	-

Qeydiyyat : AQS-Avropa Qorunma Statusu, DQS-Dünya Qorunma Statusu
+ Naxsıvan MR ornitofaunasında Azərbaycanın Qırmızı kitab növləri
++Naxçıvan ornitofaunasında Qırmızı Kitaba əlavə edilməsi məsləhət görülən növlər
Dc_-_Declininig—sayı azalır
ATS-Avropa Təhlükə Statusları
D-Depleted- təhlükə vəziyyətində olanlar
S-Secure-sayı sabitdir
CR-Critically – böhranlı vəziyyətdə olanlar
EN--Endangered- təhlükəyə məruz qalanlar
VU- mənfi təsirlərə həssas növlər
Ra-rare-nadir növlər
DD-Data Deficient-haqqında məlumat azdır
L-Localised- məhdud ərazidə toplanır
NE-Not Evalutnd –Qiymətləndirilməmiş, təklif verilməmiş (əsasən köçəri quşlar olduğu üçün)

Cədvəl 2. Naxçıvan MR ərazisinin su-bataqlıq sahələrində yayılmış ornitofaunanın taksonomik spektri

	Dəstələr	Fəsilənin sayı	Cinsin sayı	Növlərin sayı
1.	***Qaqarkimilər-Gavıiformes***	1	1	1
2.	*Maygülükimilər-Podicipediformes*	1	1	3
3.	*Qutankimilər-Pelecaniformes*	2	2	4
4.	*Leyləkkimilər-Ciconiiformes*	3	10	12
5.	*Flaminqokimilər-Phonijopteriformes*	1	1	1
6.	***Qazkimilər-Anseriformes***	1	7	17
7.	*Durnakimilər-Gruiformes*	3	6	7
8.	***Cüllütkimilər-Charadriiformes***	6	17	28
9.	Cəmi:	18	45	73

Cədvəl 3. SPEC-Avropada Qorunma Statuslu Növlər

SPEC-kateqoriyası	Dünya miqyasında qorunma statuslu növlər	Avropa miqyasında qorunma vəziyyəti	Dünya populyasiyası ya da yayılması Avropada artan növlər
SPEC 1	Var	------	-------
SPEC 2	Yox	Vəziyyəti pis	Artır
SPEC 3	Yox	Vəziyyəti pis	Artmır
Non-SPEC^E *	Yox	Vəziyyəti yaxşı	Artır
Non-SPEC *	Yox	Vəziyyəti yaxşı	Artmır

İUCN Qırmızı Siyahı kriterilərini bölgələrə görə tədbiq etmək üçün hazırlanan təyin edici, bu kriterilərin SPEC kateqoriyalarını müəyyənləşdirmək üzrə istifadəsini asanlaşdırır. BiE2-də, BiE1-də olduğu kimi, hər bir növ aşağıdakı beş kateqoriyadan birinə yerləşdirilmişdir (BirdLife International, 2004). Aşağıdakı cədvəldə «non-SPEC»- Avropa miqyasında qorunma statusu olmayan növlər üçün işlədilir (Cədvəl 3).

Əgər bir növ İUCN Qırmızı Sıyahı Kriterilərinə görə dünya miqyasında Təhlükə Altında (CR, EN, VU) və Təhluke Altına Girməyə Yaxın (NT), yaxud Məlumat Azlığı (DD) olaraq siniflendirilmişsə, bu, dünya miqyasın da qoruma statusu olan növ kimi qəbul edilmişdir (Jonsson, 1992; BirdLife International, 2004; Sultanov və b., 2005a).

Ayrıça aşağıdakı kriterilərdən hər hansı birini saxlayan növlərin də Avropa miqyasında qorunma vəziyyəti pis olaraq qəbul edilmişdir: *kicik amma azalmayan populyasiyaya sahib növlər*, *orta dərəcədə azalan növlər*, *daha əvvəl olduqları bəzi bölgələrdən tamamıilə yox olmuş və ya da bir ərazidə artan növlər* (soldan üçüncü sütun). Əgər bir növün bütün dünyadakı yuvalama yaxud qışlama populyasiyasının və ya yayılma ərazisinin yarıdan çoxu, Avropadadırsa, bu növ *Avropada Artan Növ olaraq* siniflendirilmişdir (sonuncu sütun). (*) ilə işarəli non-SPEC kateqoriyası, qoruma statusu olmaqla birlikdə Avropada artan növləri göstərir (Jonsson, 1992).

Qiymətləndirmənin sonunda, 524 Avropa quş növündən 226–sı (43%) SPEC kateqoriyalarından birinə yerləşdirilmişdir. Bunların 40-ı (7,6%) SPEC 1, 45-i (8,6%) SPEC 2, və 141–i (26,9%) SPEC 3 olaraq siniflendirilmişdir. BiE1-də SPEC olaraq siniflendirilən 195 (qiymətləndirilən 511 növün 38%-i) növ üçün vacib olan bütün göstəricilər artmışdır (Jonsson, 1992).

SPEC1 kateqoriyasındakı artım, daha əvvəlcə SPEC 2 və SPEC 3 olaraq sinifləşdirilən və dünya miqyasında *Təhlükə Altına Girməyə Yaxın* (NT) olan növlərin vəziyyətlərindəki dəyişikliyi göstərir və bu növlərin dünya miqyasında qorunması vacibdir. Bununla birlikdə, SPEC 2 və SPEC 3 növlərinin göstəricilərinin artması ciddi bir təhlükənin işarəsidir. Avropa ölçüsündə bir çox quş növlərinin (45 növ) vəziyyəti yaxşıdan pisə doğru dəyişmişdir. Digər tərəfdən, sadəcə 14 növün vəziyyəti pisdən yaxşıya doğru dəyişmişdir. 1970-1990 illər arasındakı məlumatlara baxdıqda, SPEC kateqoriyasındakı bir çox növlərin ciddi bir şəkildə azalmağa doğru davam etdiyini görürük (Jonsson, 1992).

Bunun üçün də, dünya dövlətlərinin 2010-cu ilə qədər Bioloji Müxtəlifliyin məhv olmasının azalması və Avropa Birliyinin bu məhv olmanın tamam dayanması üçün köməklik göstərdiyi bir vaxtda üzərində ciddi dayanılması vacib olan məsələlərdir (Talıbov, 1999).

Avropa qitəsi, təbiəti qoruyan qanunun tətbiqindən sonra müsbət nəticələr əldə etmişdir. *AB Quş Direktivləri, Berin Müqaviləsi və Köçəri Növlərlə* bağlı müqavilə 25 il əvvəl bir dönüş nöqtəsi olmuş və bu müqavilələr sayəsində olduqca mühüm nəticələr əldə etmişdir. Buna görə də bioloji müxtəlifliyin qorunması üçün lazımi addımların gələcək 25 il müddətində genişlənməsi vacibdir.

Qiymətləndirmə

BiE1-də olduğu kimi, BiE2-nin də nəticələri göz önündədir. Avropanın quşları böyük ərazi dəyişmələrilə bağlı ciddi təhlükə altındadır və qeyd edək ki, bir çox quş növləri on il əvvələ görə indi daha da çox pis vəziyyətdədir. Sağlam bir təbiətin indikatoru olan quşların azalmağa doğru davam etməsi, Avropada yaşayış şəraitinin pozulduğunun acıq təzahürüdür.

BiE1-də çalınan həyaçan təbili indi daha da güclü çalınmalıdır. Bunun üçün təkcə 2010-cu ilə qədər yalnız quş növləri deyil, eyni zamanda bütün bioloji müxtəlifliyin məhvinin dayandırılması üçün ciddi tədbirlər aparılmalıdır.

NƏTİCƏLƏR

- Tədqiqat nəticəsində müəyyən edildi ki, Naxçıvan MR-in ornitofaunasındakı su-bataqlıq quşlarının 8 dəstə, 18 fəsilə, 45 cins və 73 quş növü yayılmışdır ki, bunlardan da 6 növ Naxçıvan Muxtar Respublikasının ornitofaunası üçün ilk dəfə qeyd edilir.
- Quşların mövsümi xarakterinə görə

bölgüsündə oturaq növlər 8, yuvalayanlar 13, köçərilər 25, qışlamağa gələnlər isə 25 növ olmuşlar.

- MR-nın Mühüm Ornitoloji Ərazilərinin ornitofaunasinin su-bataqlıq quşlarından Dünya Qorunma Statuslu 6, Avropa Qorunma Statuslu 10, Azərbaycanın Qırmızı Kitabına düşmüş 7, Azərbaycanın Qırmızı Kitabına düşməyə ehtiyacı olan 4 növ yayılmışdır.
- Ərazinin quşları üçün ən böyük narahatedici amil, burada aparılan balıqçılıq işləridir. Muxtar Respublikanin ərazisində ovun qadağan edilmə sinə baxmayaraq, yenə də qanunsuz ovçuluq hallarına rast gəlinir.

ƏDƏBİYYAT

BirdLife International (2004) Birds in Europe: population estimates, trends and conservation status. Cambreidge: UK BirdLife International (BirdLife Conservation Series), 12: 374 p.

Jonsson L. (1992) Birds of Europe vith North Africa and Midlle East. (Helm Ch., Black J., Publishers), Limited London: 559 p.

Mehdiyev A.M., Novruzov H.M. (1990) Arazboyu düzənlikdə yayıl mış quşların mühafizə problemləri. XI Elmi konfransın mate rialları. Naxçıvan: s. 5.

Mustafayev Q.T., Məhərrəmova N.A. (2005) Ornitologiya. Bakı, Çaşoğlu: 442 s.

Məmmədov A.F. (2005) H.Ə. Əliyev adına Ordubad Milli Parkının ornitofaunası. Azərbaycanda elmin inkişafı və regional problemlər. Naxçıvan elmi konfransın materialları. Bakı: Nurlan, s. 362-367.

Məmmədov A.F. (2006) Naxçıvan su anbarı Mühüm Ornitoloji Ərazisində Mühafizə statuslu su-bataqlıq quşları. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan, Tusi 3: s. 59-63.

Novruzov H.M. (1982) Naxçıvan MR-in avifaunasına dair əlavələr. Azərb. Ali Məktəb. Asp.-nin V Respub. Elmi Konfransının məruzələrinin tezisləri. Bakı: s. 140.

Sultanov E.H. Məmmədov A.F. (2004) Naxçıvan MR-in Mühüm Ornitoloji Əraziləri. Naxçvanın tarixi, maddi və mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi. Elmi konfransın materialları. Bakı, Eim: 237-240.

Sultanov E.H., Ağayeva N., Laxman L., Broynlix O., Herkenrat P., Sallivan C. (2005a) Xüsusi Qorunan və Mühüm Ornitoloji Ərazilər Haqqında Vəsait. Azərbaycan Ornitoloji Cəmiyyəti, Böyük Britaniyyanın Ətraf mühüt, Ərzaq və Əyalətlər üzrə Departamenti Quşları Müdafiə Kral Cəmiyyəti (Böyük Britaniya). Bakı, Defra: 79 s.

Sultanov E.H., Brombaxer M., Kərimov T., Ağayeva N., Məmmədova A., Cabbarova A. (2005b) Azərbaycanın quşları. Təbiətdə müşahidə aparmaq üçün kiçik təyinedici. BirdLife İnternational. Bakı-Avropa və "Tektronix-S" MMC: 72 s.

Talıbov T.H. (1999) Naxçıvan Muxtar Respublikasında nadir heyvan növ ləri və onların genofondunun qorunmasi. Bakı, Elm: 40-62.

Talıbov T.H, Sultanov E.H., Kərimov T.Ə., Məmmədov A.F. (2005) Araz su anbarının ornitokompleksi. AMEA Xəbərlər. Bakı: Elm, 1-2: s. 145-150.

Tuayev D.Q. (2000) Azərbaycan quşlarının katoloqu. Bakı, Elm: 239 s.

А.Ф. Мамедов

Водно-Болотние Птицы Важнейших Орнитологических Местностей Нахчыванской Автономной Республики

В статье приводятся данные об орнитофауне ключевых орнитологических территорий Нахчыванской АР. Определены таксономический спектр видов птиц региона, а также их сезонные, SPEC и Европейские охранные статусы, критерии и категории. Составлен список внесенных в Красную Книгу Азербайджана и предполагаемых для внесения видов птиц.

A.F. Mamedov

Water-Wading Bird Important Ornithological Area of Nakhchivan Autonomous Republic

In clause the data about ornithofauna of major ornithological areas of Nakhchevan Autonomous Republic are presented in the paper. The criteria and categories of taxonomic spectrum of bird species of the area, and also their seasonal, SPEC and European security statuses are determined. The checklist of bird species entered into the Red Book of Azerbaijan, and those expected to be entered is prepared.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 64, №5-6, səh. 102-105 (2009)

Идентификация и Дифференциация Штаммов Листерий, Выделенных из Различных Объектов

Ф.М. Кулибеков[1], Р.М. Потехина[1], Х.Н. Макаев[1], Г.Х. Муртазина[2]
[1]*Федеральный центр токсикологической и радиационной безопасности животных*
[2]*Казанский государственный медицинский университет*

Изучены культурально-морфологические свойства, патогенность и идентификация специфическими листериозными сыворотками и ПЦР 39 изолятов листерий, выделенных из разных видов животных, абортированных плодов человека и продуктов питания, с целью отбора штаммов данных бактерий для использования при изготовлении диагностикума и средств специфической профилактики листериоза. Подобрана среда для длительного хранения листерий в лабораторных условиях.

Ключевые слова: *листерии, биологические свойства, дифференциация, идентификация*

ВВЕДЕНИЕ

Широкомасштабные эпизоотологические исследования отечественных и зарубежных исследователей свидетельствуют, что листериоз, характеризующийся высокой контагиозностью и летальностью, представляет реальную угрозу здоровью людей и животных. Однако создание средств диагностики и профилактики данной инфекции диктует необходимость выделения и изучения свойств ее возбудителя.

Целью наших исследований являлось изучение биологических и молекулярно-генетических свойств возбудителя листериоза, выделенного от животных и людей из различных объектов и подбор среды для длительного хранения данных бактерий в лабораторных условиях.

МАТЕРИАЛЫ И МЕТОДЫ

В экспериментах использованы 39 изолятов листерий, в том числе 5 изолятов, выделенных от крупного рогатого скота, 12 - от овец, 8 - от свиней, 10 - от кроликов и 4 от абортированных плодов человека при проведении клинико-эпизоотологического и эпидемиологического мониторинга листериоза в республиках и областях СНГ и РФ. При изучении свойств взятых в опыт изолятов листерий контролем служили 3 штамма возбудителя рожи свиней, 4 штамма сальмонелл, выделенных от больных поросят и телят, и 5 референтных штаммов листерий, полученных из ВИЭВА и ВГНКИ.

Все отобранные для исследований изоляты листерий выделены из паренхиматозных органов (печень, селезенка, почки), головного мозга и абортированных плодов. После бактериологического и биохимического контроля, изоляты дополнительно дифференцировали от других бактерий моно- и полиспецифическими диагностическими листериозными сыворотками. Для этих целей использовали листериозную сыворотку OI, II (О-факторы I и II) для отделения типов 1, 2, 3 от 4-го и листериозную сыворотку ОУ (О-факторы У) для отделения типа 4 от 1, 2, 3. Контролем на аутоагглютинацию служила суспензия листерий в физиологическом растворе. Для контроля типоспецифичности листериозных сывороток использовали референтные штаммы возбудителя рожи свиней – «106», сальмонелл – «2505» и листерий – «799» 1 серотипа, «9-128» 2серотипа, «9-129» 3 серотипа, «9-130», «9-72» 4 серотипа.

Для выращивания культур были взяты питательные среды: простой МПА и бульон, МППА и бульон, МПА и бульон с 0,5% глюкозы и 1% глицерина, МПА с добавлением метиленовой сини 1:40000, генциан-виолета 1:80000 и 0,002% теллурита калия, 0,3% полужидкий МПА под вазелиновым маслом. Гемолитическую активность изучали на средах с добавлением эритроцитов барана, а каталазную активность – при добавлении в односуточную бульонную культуру листерий 3%-ного раствора перекиси водорода. Все среды брали с одинаковым pH – 7,2-7,4.

Морфологические свойства листерий изучали в мазках, окрашенных по Граму, подвижность – методом раздавленной капли, индолообразование – по способу Сальковского, ферментативную активность определяли на жидких питательных средах с добавлением углеводов и высокоатомных спиртов.

Идентификацию взятых в опыт изолятов осуществляли индикацией генома возбудителя

полимеразной цепной реакцией (ПЦР). ДНК из биомассы бактерий выделяли по методу Мармура. Пробы для ПЦР анализа готовили экспресс лизированием. ПЦР проводили на амплификаторе «Терцик» в автоматическом режиме, поддерживающем заданные температурные и временные параметры реакции.

Патогенность и вирулентность отобранных изолятов и референтных штаммов листерий проверяли на 780 белых мышах весом 14,0-16,0 при подкожном и внутрибрюшинном заражении, на 140 морских свинках весом 250,0-300,0 при внутрибрюшинном введении и конъюнктивальной аппликации культуры листерий. Наиболее вирулентных 8 изолятов дополнительно испытали на 48 кроликах при внутримышечном и внутрибрюшинном заражении. Концентрацию микробных тел в суспензии культур определяли по оптическому стандарту мутности ГНКИ им. Тарасевича, а также посевом последовательных разведений на пластинки агара. Наблюдение за опытными животными продолжали 30-45 дней.

РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЕ

Морфологические, культуральные, биохимические свойства 35 изученных изолятов листерий в основном были сходны с описанными в литературе, за исключением лишь некоторых индивидуальных различий. Они представляли собой Грам-положительные палочки с закругленными концами, не образующие спор и капсул, обладали сахаролитическими, гемолитическими свойствами, каталазной активностью и способностью редуцировать краски (метиленблау, конгорот, нейтральрот), не свертывали молоко, не разжижали желатину. В то же время 2 изолята, выделенные от кроликов и 2 – от плодов человека, имели кокковидную форму, сворачивали молоко и обладали слабой каталазной активностью. На питательных средах все взятые в опыт изоляты давали характерный для листерий рост: в МПБ – в виде равномерного помутнения, на МПА – в виде прозрачных, с голубоватым оттенком в проходящем свете, слегка выпуклых колоний; в 0,3%-ном полужидком МПА при посеве уколом росли сплошным столбиком. Более пышный рост листерий наблюдали на МПА с добавлением 0,5% глюкозы и 1% глицерина. На МПА с добавлением метиленовой сини (1:40000) образовывали круглые с ровными краями колонии в диаметре 1-3 мм, центральная зона которых была ярко голубовато-зеленого цвета, интенсивность которого к краю колонии снижалась, на среде с теллуритом калия восстанавливали металлический теллурит, и колонии приобретали черный цвет, чего не наблюдали при посеве рожистых бактерий и сальмонелл.

На подвижность листерий влияли сроки инкубации и температурный режим. Наиболее активное движение наблюдали через 24 часа инкубации при комнатной температуре у 20 изолятов, менее активное – у 7, и 3 изолята были неподвижны, а при инкубации в термостате (37^0) в течение этого же времени активное движение наблюдали у 5 изолятов, слабо выраженное – у 12 и 13 (в том числе 4 изолята кокковидной формы) - были неподвижны. Данное обстоятельство следует учитывать при идентификации и дифференциации листериозных культур от других грампозитивных микробов.

При пересевах гемолитическая активность некоторых изолятов усиливалась, а при неоднократном пассажировании через лабораторных животных изменений гемолитической активности не наблюдали. Не установлена корреляция между гемолитической активностью и вирулентностью данных изолятов.

По результатам исследования взятых в опыт изолятов с типоспецифической сывороткой OI, II и ОУ – отобранные 26 изолятов листерий отнесены к первому серотипу, так как все они агглютинировались листериозной сывороткой OI и II; 9 – ко второму и 4 (из которых один выделен из плода человека) – к четвертому серотипу.

Для хранения листерий в лабораторных условиях использовали МПБ, МПА, МППА и 0,3%-ный полужидкий МПА под вазелиновым маслом. В результате многочисленных высевов, пересевов и заражения белых мышей в разные сроки хранения установлено, что для длительного хранения (без изменения первоначальных биологических свойств) наиболее пригодной средой является 0,3%-ный полужидкий МПА под вазелиновым маслом. Жизнеспособность и вирулентность листерий при хранении в данной среде сохранялось в течение 2-х лет (срок наблюдения), что подтверждено в опытах на белых мышах, тогда как посевы культур хранившихся в МПБ, были стерильными через 1,5 месяца, а на агаровых пластинках – спустя 1 месяц.

При изучении патогенности и вирулентности взятых в опыт изолятов установлено, что наиболее патогенными для белых мышей оказались 10 изолятов, вирулентность которых составляла 250, 500 тыс.м.к., 12 – в дозах от 1 до 100 млн.м.к., в то время как 6 – оказались слабовирулентными (более 1 млрд.м.к.), а 3 изолята – апатогенными.

Испытания на морских свинках показали, что наиболее патогенны 20 изолятов, вирулент-

ность которых составляла 500 тыс.м.к., 11 – в дозах 100 млн.м.к., 5 – слабовирулентны (более 1 млрд.м.к.), а 3 изолята – не патогенны.

Вирулентными для кроликов были изоляты листерий «Т-86», «А», «Б», «Ч», «М-1», «1867» и «Казахстан», которые вызывали гибель кроликов при внутрибрюшинном введении возбудителя в дозе 500 тыс.м.к., а при введении внутримышечно – от 1млрд.м.к.

При аппликации на конъюнктиву морских свинок бульонной культуры 31 изолята (в том числе и кокковидных) развивался выраженный конъюнктивит на 2-5-й день, 6 изолятов – на 6-9 сутки. Если при аппликации 37 изолятов регистрировали положительную реакцию (хотя и в не одинаковой степени), то нанесение двух изолятов на конъюнктиву даже в дозе 2 млрд.м.к. в объеме 0,1 мл не привело к развитию конъюнктивита, не смотря на то, что эти изоляты по всем свойствам отнесены к листериям.

Наиболее перспективным методом для выявления возбудителей инфекционных болезней и их идентификации по генетическим маркерам является ПЦР. К настоящему времени описано несколько систем для амплификации различных участков генома *L.monocytogenes* (Александрова и др., 2005; Бакулов и др., 2004; Жаргалова и др., 2000). Учитывая это, провели идентификацию взятых в опыт изолятов листерий с помощью ПЦР. Были использованы праймеры, комплементарные к участкам гена А, отвечающего за продуцирование листериолизина, так как данные пары праймеров инициируют синтез специфичных фрагментов только на матрице ДНК листерий. В результате анализа нуклеотидных последовательностей на основе имеющихся в базе Gen Banka данных установлено, что использованные в эксперименте изоляты отнесены к *L.monocytogenes*, независимо от патогенности, формы бактериальной клетки, объекта и географии выделения.

ЗАКЛЮЧЕНИЕ

Изучение культурально-морфологических, серологических, биохимических, молекулярно-генетических и вирулентных свойств листерий, выделенных от разных видов сельскохозяйственных животных и абортированных плодов человека, подтвердило их типичность. Различий в зависимости от места, объекта и географии выделения не установлено.

При изучении вирулентных свойств листерий на лабораторных животных установлено, что 18 изолятов обладают высокой и стабильной вирулентностью, 6 – слабовирулентны, а 2 – в испытанных дозах не патогены.

0,3%-ный полужидкий МПА под вазелиновым маслом (0,5 см) является наиболее благоприятной средой для длительного хранения листерий в лабораторных условиях.

СПИСОК ЛИТЕРАТУРЫ

Александрова Н.М. Алимов М.А., Алимов А.М. (2005) Контаминированность объектов ветеринарного надзора возбудителем листериоза. Матер. междунар.симп. Казань, **II:** 9-13.

Бакулов И.А., Котляров В.М., Фирсова Т.Е., Чевелева С.С., Кольпикова Т.Н. (2004) Листериоз как пищевая инфекция и современные методы лабораторной диагностики. Всерос. науч.-исслед. ин-т ветеринар. вирусологии и микробиологии. Покров: 102-106.

Жаргалова Т.Т. Котляров В.М., Цыбанов С.Ж. (2000) Современные методы типирования патогенных листерий. Междунар. науч.-практ.конф. «Диагностика, профилактика и меры борьбы с особо опасными, экзот. и зооантропоноз. болезнями животных» Сб.ст. Покров, 252-255.

F.M. Gulubayov, R.M. Potechina, Kh.N. Makayev, G.Kh. Murtazina

Biological Features of *Listeria* Strains Isolated in CIS Countries and Russia

The aim of the study was to identify listeria bacteria strains that can be used for listeriosis diagnostics and prevention. Listeria strains isolated in the CIS countries and Russia were investigated for their cultural and morphological features, pathogenicity, and specificity. Medium for listeria long-term storage in laboratory conditions was selected.

F.M. Qulubəyov, R.M. Potexina, X.N. Makayev, G.X. Murtazina

Müxtəlif Obyektlərdən Ayrılmış Listeriya Ştammlarının Identifikasiyası və Differensiasiyası

Müxtəlif növ kənd təsərrüfatı heyvanlarından və abort olunmuş insan embrionundan ayrılmış listeriyaların kultural-morfoloji, seroloji, biokimyəvi, molekulyar-genetik və virulent xüsusiyyətləri öyrənilmiş və təsdiq olunmuşdur. Laborator heyvanları üzərində listeriyanın virulent xüsusiyyətinin öyrənilməsi göstərir ki, 18 izolyat yüksək və stabil virulentli, 6-sı zəif virulentli və 2-si tətbiq olunmuş dozada patogen olmamışdır. Listeriyanın laboratoriya şəraitində uzun müddət saxlanması üçün 0,3 sm qalınlığında vazilen yağı altında 0,5%-li yarımmaye ƏPA mühiti daha münasibdir.